www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26-28 iyun 2015-ci il Cümə № 138 (6166) Qiymətı 40 qəpik

**Xəbər**

## "Dostluq" parkına görə tutulan iş adamı xalq artistinin kürəkəni çıxdı

yazısı səh.5-də

**Gündəm**

### Bu gün Silahlı Qüvvələr Günüdür



Zakir Həsənov: "Azərbaycan əsgəri quruda, havada və dənizdə Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir"

yazısı səh.3-də

### Deputat təhqiramiz karikaturaya sərt cavab verdi

yazısı səh.7-də

### Üç NİDA üzvü bəyanat yaydı

yazısı səh.5-də

### Azərbaycanda niyə Ramazan endirimləri yoxdur?

yazısı səh.15-də

### Türkiyənin İsraillə gizli danışıq apardığı təsdiqləndi

yazısı səh.8-də

### Ukrayna-Azərbaycan münasibətləri və Poroşenkonun iki səhvi...

yazısı səh.9-da

### Kişi məktəb direktoru xadiməni döydü

yazısı səh.15-də

### AŞ PA Azərbaycan üzrə yeni həmməruzəçi təyin etdi

yazısı səh.8-də

### 41 dərəcə istidə əmək fəaliyyəti dayandırılmalıdır, ya da...

yazısı səh.13-də

### İrəvan vətəndaş müharibəsinin bir addımlığında

yazısı səh.10-da

### Leyla və Arif Yunusların işi məhkəməyə göndərilir

yazısı səh.6-da

**Ramazan ayının 9-cu günü**

İftar 21.31. İmsaq (azan) 4.41 (QMİ)

9-cu günün duası: "İlahi, mənə bu gün Öz geniş və vüsətli rəhmətini qismət et və məni aydın, qüdrətli dəlillərinlə hidayət et! Məni Öz məhəbbətinlə istədiyin əməllərin hamısına müvəffəq et! Ey istəklilərin ən yüksək Arzusu!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Rusiya daha bir adamını "müxalifət"in başına keçirdi

# QALMAQALLI SABİQ SƏFİR MİLLİ ŞURAYA GƏTİRİLİR, ÇÜNKİ...

Arif Məmmədova "müxalifət diplomu" hazırlandığı, tezliklə onun bəyanatlarının daha da sərtləşəcəyi və nəhayətdə, Bakıda "müxalifət lideri" statusunadək şişirdiləcəyi barədə iddialar təsdiqləndi; rəsmi Bakı bu projenin arxasında dayananları bilir və bu səbəbdən Arif Məmmədov məsələsini böyütmür...



yazısı səh.5-də

## Abbas Abbasovun qardaşı 10 milyon borca görə həbs edilib

Nadir Abbasovun Gəncədə keçmiş Yeyinti Ticarəti İdarəsinin bazasında soyuducular tikmək üçün Beynəlxalq Bankdan kredit götürdüyü bildirilir

yazısı səh.3-də



### Nazim İbrahimovun qardaşı istintaqa çağırıldı

yazısı səh.12-də



*Əli Həsənov:*

### "Ermənistanda baş verənlər cinayətkar rejimə qarşı xalq üsyanıdır"

yazısı səh.7-də



### Fazil Mustafadan məmurlar haqda şok iddia

yazısı səh.12-də

**26-28 iyun 2015**




## Qarabağ müharibəsi haqqında çəkilmiş film təqdim olundu

**Qarabağ Azadlıq Təşkilatının (QAT) çəkdiyi "Yaddaş" sənədli filminin Beynəlxalq Mətbuat Mərkəzində təqdimatı keçirilib. Film Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "Qarabağ həqiqətlərinin əks olunduğu CD və DVD-lərin, çap materiallarının hazırlanması və yayılması, Türkiyə, İran və Gürcüstan QHT-ləri ilə bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi" adlı layihə çərçivəsində hazırlanıb.**

Filmin ideya müəllifi Akif Nağı, ssenari müəllif və rejissoru Elxan Xanəlizadədir, yaradıcı heyətə həmçinin Firuzə Əsədullayeva, Heyran Muradova, Əzizə Muradova və digərləri daxildirlər. Azərbaycan, türk, ingilis və rus dillərində hazırlanan 20 dəqiqəlik filmdə Qarabağ müharibəsi, ermənilərin saxtakarlığı, təcavüzü, vəhşikləri, terror aktları, Xocalı soyqırımının qurbanları, həmçinin bu soyqırımı törədənlərlə bağlı məlumat verilir. Filmin məqsədi Qarabağ müharibəsi, Azərbaycana qarşı erməni təcavüzü haqqında məlumatın dünya birliyinə çatdırılmasıdır. Filmi, başqa cür desək, "Qarabağ müharibəsinə dair qısa məlumat kitabı" kimi də təqdim etmək olar.

QAT sədri A.Nağının aparıcılığı ilə keçirilən tədbirdə filmin rejissoru Elxan Xanəlizadə, ekspertlər Mübariz Əhmədoğlu, Firdovsiyyə Əhmədova, Rauf Zeyni, Emin Həsənli, Gülbala Mustafayev, Əvəz Həsənov, Qafar Çaxmaqlı, Mehriban Abdullayeva, Əlisafa Mehdi və digərləri çıxış ediblər. Çıxışlarda filmin əhəmiyyəti, dəyərli məqamları, dünya birliyinə effektiv çatdırılma formaları qeyd olunub. Akif Nağı təklif edib ki, filmin nüsxələri QHT Şurası və digər qurumlar vasitəsilə Birinci Avropa Oyunlarının iştirakçılarına, rəhbər heyətlərinə, turistlərə çatdırılsın, həmçinin Azərbaycanın televiziyaları vasitəsi ilə vaxtaşırı nümayiş etdirilsin. O, belə bir təklif də irəli sürüb ki, Beynəlxalq Mətbuat Mərkəzində və digər yerlərdə keçirilən tədbirlər bu filmin nümayişi ilə başlanılsın, həmçinin xarici tədbirlərdə iştirak etmək üçün gedən hər kəs də bu filmi özü ilə götürsün, imkan daxilində həmin tədbirlərdə göstərilməsinə nail olsun.

Təqdimatda ictimai-siyasi xadimlər, QHT nümayəndələri, ekspertlər, QAT üzvləri, müharibə veteranları, məcburi köçkünlər, qaçqınlar və digərləri iştirak edib, film barəsində fikirlərini, rəylərini söyləyiblər. Sonda filmin DVD nüsxələri tədbir iştirakçılarına paylanıb.

❑ **Cavid TURAN**

## Katolik ermənilərin lideri öldü

**Erməni Katolik Kilsəsinin rəhbəri Nerses Petros Beyrutda infarktdan ölüb. Axar.az xəbər verir ki, bu barədə informasiyanı erməni mətbuatı yayıb. Qeyd edək ki, Nerses Petros 1999-cu ildən Erməni Katolik Kilsəsinə rəhbərlik edirdi.**

## Bakıda 12 nəfəri gün vurub

**Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına havanın kəskin isti keçməsi ilə əlaqədar 12 nəfər müraciət edib. Stansiyanın baş həkimi Rauf Nağıyev modern.az saytına açıqlamasında bildirib ki, bu statistika may ayından bu günə qədər olan vaxtı əhatə edir: "Stansiyaya müraciət edən 12 nəfərdən 3-nü xəstəxanaya yerləşdirmişik. Müəssisəyə olunan müraciətlərin hamısı günvurmadan olub".**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Gümrüdəki Rusiya hərbi bazası hazırlıq səviyyəsinə gətirilib

## Serj Sərkisyan Qarabağdakı hərbi birləşmələri İrəvan ətrafına yığır

**"Jane's Defence İntellegence" dərgisinin facebook səhifəsində verilmiş məlumata əsasən, Qərb hərbi kəşfiyyat mənbələri Qarabağda dislokasiya olunmuş bir neçə hərbi hissənin Ermənistana aparılması haqqında bilgi verirlər. Həmin birləşmənin şəxsi heyətinin əsasən Qarabağ ermənilərindən ibarət olduğu qeyd edilir.**




Mənbənin məlumatına görə, bu bölmələrin Laçın dəhlizi istiqamətində hərəkəti Qərb ölkələrinin hərbi kəşfiyyat peykləri tərəfindən qeydə alınıb. Güman edilir ki, ən mükəmməl hərbi kəşfiyyat peyklərinə məxsus olan bu ölkə ABŞ-dır. Məxfiliyi qorumaq və əhali arasında təşviş yaratmamaq üçün qoşunların hərəkəti gecə saatlarında, bütün texnikanın işıqlarının tam keçirilməsi şəraitində həyata keçirilib. 2000-2500 nəfərdən ibarət şəxsi heyəti olan bu birləşmənin əsas hissəsi İrəvan şəhərinin, digər hissəsi isə Gümrünün ətrafında yerləşdirilib.

Ehtimal olunur ki, İrəvanda son etirazların fonunda prezident Serj Sərkisyan Ukraynadakı Maydan hadisələrinin və mümkün dövlət çevrilişinin Ermənistanda təkrarlana biləcəyindən ehtiyat edir. Vəziyyətin bu məcrada inkişafı halında onun müdafiə naziri S.Ohanyana və şəxsi heyəti Ermənistan ermənilərindən ibarət hərbi hissələrə etibar edə bilməyəcəyi ehtimal olunur.

Təsadüfi deyil ki, bir neçə gün bundan öncə Dağlıq Qarabağın müdafiə naziri general-leytenant Movses Hakobyan Ermənistan ordusunun baş qərargah rəisinin müavini təyin olunub. Qarabağdan dislokasiya olunmuş qüvvələr və digər yarıhərbi birləşmələr bilavasitə onun komandanlığına verilmişdir. Əgər vəziyyət nəzarətdən çıxarsa və hərbçilər əmrə tabe olmazlarsa, Sərkisyan durumu nəzarətdə saxlamaq üçün yalnız ona etibar edəcək. Rusiyanın Gümrüdəki hərbi bazası da birinci dərəcəli hazırlıq səviyyəsinə gətirilib.

❑ **Musavat.com**

## II Avropa Oyunları üçün 4 ölkə müraciət edib

### Növbəti Avropa Oyunları Qərbi Avropada keçirilə bilər

**İkinci Avropa Oyunları Qərbi Avropada keçirilə bilər. APA-nın "Associated Press" agentliyinə istinadən verdiyi məlumata görə, bu barədə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki bildirib.**

Onun sözlərinə görə, qurumun siyasəti geniş coğrafi əraziyə yayılmaqdır: "Bu mənim şəxsi arzumdur ki, biz qədim Avropaya qayıdaq. Niderland bu tələbə uyğun gəlirdi. Biz bu oyunların ikincisini Avropanın qədim hissəsində etmək istərdik. Bu, hələ mümkündür. Əgər olmasa, oyunları ən yaxşı həsab etdiyimiz yerdə keçirəcəyik".

Patrik Hikki 2019-cu il oyunlarını keçirmək üçün 4 ölkənin müraciət etdiyini deyib, lakin ad açıqlamayıb.

Onun sözlərinə görə, onlardan ikisi Niderlandın namizədliyi zamanı imtina olunan ölkələrdir və onlar təkrar müraciət ediblər. Digər ikisi isə prosesə yeni qoşulub. O, qərarın ilin sonunda açıqlanacağını deyib.

## Xəzərin səviyyəsi 30 sm enib



**"Xəzər dənizinin səviyyəsi ötən illə müqayisədə təxminən 30 sm-dək enib". Bu barədə APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun aparıcı elmi işçisi Nazim Əhmədov məlumat verib. Onun sözlərinə görə, Xəzər dənizinin səviyyəsi 2005-ci ildən azalır. Bu proses 2009-cu ildən daha da intensivləşməyə başlayıb.**

N.Əhmədov bildirir ki, hazırda Xəzərin səviyyəsi okean səviyyəsindən - 28 metr aşağıdır. Mütəxəssis suyun səviyyəsinin azalmasının narahatlıq doğurduğunu deyib: "Suyun səviyyəsinin düşməsi onun özünü təmizləmə qabiliyyətini azaldacaq və canlıların həyat səviyyəsi aşağı düşəcək".

Mütəxəssis Xəzərdə suyun azalmasına iqlim, dəyişkənlik, tektonik amillər, çaylarda suyun səviyyəsinin azalması kimi faktorların da təsir etdiyini bildirir. N. Əhmədovun sözlərinə görə, proqnozlar Xəzərdə hazırda enmə dövrünün yaşandığını göstərir.

Qeyd edək ki, 1995-ci ildə Xəzər dənizində suyun səviyyəsi ən yüksək həddə çatıb. Ən aşağı səviyyə isə 1977-ci ildə qeydə alınıb.

## Bakı metrosunda iş saatları dəyişəcək



**"Bakı 2015" I Avropa Oyunlarının bağlanış mərasimindən sonra Bakı Metropolitenində iş saatları əvvəlki qrafiklə əvəzlənəcək. Bu haqda "Report"a "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib.**

O deyib ki, iyunun 12-dən metro saat 06:00-dan 01:00-a qədər işləyir: "Lakin Oyunlar bitəndən sonra metro yenidən gecə 00:00-a qədər işləyəcək".

Qeyd edək ki, sərnişinlərin çoxluğu nəzərə alınaraq metro xidməti gecə saatlarına qədər uzadılıb. Avropa Oyunlarının açılış günü və ehtimal ki, bağlanış günü də metro qatarları səhərə qədər xidmət göstərəcək. Belə ki, stadiona yaxın olan "Koroğlu" stansiyasına sərnişin axını olur.

Əlavə edək ki, Bakıda keçirilən I Avropa Oyunları ilə əlaqədar şəhərdaxili avtobuslar da saat 05:00-dan 01:00-a qədər işləyir.

## Türkiyədə nazirliklər bölünəcək

**Türkiyədə qurulacaq yeni koalisiya üçün nazirliklərin sayının 30-a çatdırılması gündəm məsələlərdən biridir.**

Avropa.info xəbər verir ki, qurulacaq yeni koalisiya üçün dövlətin dörd nazirliyinin bölünməsi müzakirə olunur.

Mətbuatda yayılan xəbərlərə görə bu həftənin bazar ertəsi günü keçirilən Nazirlər Kabinetinin iclasının gündəm maddələrindən biri koalisiya ehtimalları olub.

Koalisiyanın qurulacağı partiyaların istədiyi nazirliklərin sayının çox olması halında bəzi nazirliklərin ikiyə bölünərək bu problemin də həll olunacağı bildirilir.

Hazırda Türkiyədə baş nazirlə birlikdə 26 olan nazirlərin sayının bu yolla 30-a qaldırılacağı fikri daha çox üzərindən dayanılan görüşdür.

Belə olacağı təqdirdə, ilk etapda Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Nazirliyi və Turizm Nazirliyi, Ətraf Mühit və Şəhərsalma Nazirliyinin Ətraf Mühit Nazirliyi və Şəhərsalma Nazirliyi, Meşə və Su İşləri Nazirliyinin Meşə Nazirliyi və Su İşləri Nazirliyi olaraq iki yerə bölünə biləcəyi bildirilir.

Enerji və Təbii Sərvətlər, Gənclər və İdman, Nəqliyyat, Dənizçilik və Rabitə nazirliklərinin də bölünməsi vəziyyətdən çıxış yolu kimi mümkündür.

## Dəhşətli qəzada ölən Allahşükür Paşazadənin qohumudur

**Xəbər verdiyimiz kimi, iyunun 23-də Bakıda, Heydər Əliyev prospektində dəhşətli qəza baş verib, 2 xarici vətəndaş olmaqla, 3 nəfər ölüb. Qəza zamanı dünyasını dəyişənlərdən biri olan Üzeyir Məmmədov Azərbaycanın Skandinaviya ölkələrində səfiri olan Adış Məmmədovun qardaşı, müğənni Ağadadaş Ağayevin yeznəsidir. Adış Məmmədov özü isə Allahşükür Paşazadənin yeznəsidir.**

❑ **E.HÜSEYNOV**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**




YENİ MÜSAVAT

N 138 (6166) 26 iyun 2015




# Bu gün Silahlı Qüvvələr Günüdür

## **Zakir Həsənov:** “Azərbaycan əsgəri quruda, havada və dənizdə Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir”



**Bu gün - 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması günüdür. Müsəlman Şərqində ilk demokratik dövləti - Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - əlahiddə Azərbaycan korpusu məhz bu tarixdə - 1918-ci il iyunun 26-da yaradılıb.**

1918-ci il mayın 28-də qəbul edilmiş “İstiqlal bəyənnaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır.

Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Dövlət büdcəsinin 24 faizi hərbi məqsədlərə ayrıldı. Avqustun 1-də isə Hərb Nazirliyi təsis olundu. Azərbaycanın ilk müdafiə naziri Xosrov bəy Sultanov təyin edildi. Daha sonra onu bu postda general Səməd bəy Mehmandarov əvəzlədi. General-leytenant Əliağa Şıxlinski isə nazir müavini təyin edilmişdi.

Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirilib.

Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad etdi. Azərbaycan ordusunun Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi generalları olmuşdu.

1920-ci ilin aprelində Azərbaycanın sovetlər tərəfindən işğalından sonra Milli Ordumuzla bərabər onun yaranma gününün qeyd olunması da ləğv edilsə də, dövlət müstəqilliyimizin bərpasından sonra, 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti Milli Ordunun yaradılması haqqında qərar qəbul edib. 1992-ci il oktyabrın 9-da Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyin hakimiyyəti zamanında Bakıda keçirilən hərbi parad orduya olan inam və marağı, eləcə də vətənpərvərlik ruhunun artırılması üçün atılan addım oldu.

Mərhum prezident Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Bu gün Azərbaycanın hərbi xərcləri işğalçı Ermənistanın dövlət büdcəsini geridə qoyur və ordumuzun maddi-texniki bazası, şəxsi heyətin döyüş ruhu yüksək səviyyədədir. Azərbaycan əsgəri Ali Baş Komandanın əmri ilə düşmən tapdağındakı torpaqlarımızı azad edəcəyi günün intizarındadır və inşallah, o gün uzaqda deyil.

İlk dəfə Azərbaycan prezidenti Əbülfəz Elçibəyin 1992-ci il 18 sentyabr tarixli fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilib. Lakin 6 il sonra Azərbaycanın üçüncü prezidenti Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən həmin fərman qüvvədən düşmüş sayılıb və 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilib.

**Azərbaycan Respublikası müdafiə naziri Zakir Həsənov 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə təbrik ünvanlayıb. Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, nazir bəyan edib ki, Azərbaycanın əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər:** “Bizim bütün hərbi hissələrimizdə, xüsusilə də cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, qarşıya qoyulan vəzifələri icra edə bilərik. Günün müxtəlif vaxtlarında, istənilən iqlim şəraitində irimiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini dəfələrlə nümayiş etdirir”. **Z.Həsənov bildirib ki, xalq öz ordusuna inanır, onun gücünə güvənir:** “Şəhid ailələri, müharibə veteran və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunub. İnanıram ki, bu sizi sevindirməklə yanaşı, məsuliyyətinizi daha da artırır. Əmin olduğumu bildirirəm ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq, hərbi intizamını artıracaq, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək, bundan sonra da qazandığı uğur və nailiyyətlərlə xalqımızı sevindirəcək və tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızın xilas edilməsinə nail olacaqdır. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram”.



**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov öncə Silahlı Qüvvələrin bütün şəxsi heyətini, həm indi xidmət keçən, həm də ehtiyatda olan əsgər, zabit, gizir və generalları təbrik etdi:** “26 iyun bizim ordumuzun bayramıdır. Hərb xidmətdə olan, həm ehtiyatda olanların bu ordunun qurulmasında bu və ya digər dərəcədə xidmətləri var. Bu gün bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasına nail olmaqdır. Ümid edirik ki, yaxın zamanlarda həmin gün gəlib çatacaq. Son günlərdə alınan silah-sursat, şəxsi heyətin döyüş ruhu, təlimlərdəki əzmkarlıq hər birimizdə bu inamı yaradır. Ötən illər ərzində hər birimizin amalı və arzusu torpaqlarımızı işğaldan azad etmək olub ki, inşallah, buna nail olacağıq. Daxili əminliyim onu deyir ki, bu yaxınlarda yaxşı hadisələrin şahidi olacağıq. Mən gözləyirəm ki, sentyabr ayından etibarən Dağlıq Qarabağda status-kvonun dəyişdirilməsi istiqamətində ciddi addımlar atılacaq”. **Ü.Cəfərov Ermənistanda gərginliklərin yaşandığı bir zamanda ordumuzun öz sözünü deməli olduğu barədə fikirlərə də münasibət bildirdi:** “Biz kəmfürsət xalq deyilik ki, Ermənistandakı vəziyyətdən istifadə edək. Ancaq bu hadisələr çoxları üçün dərs olmalıdır. Onlar bilməlidirlər ki, Sərkisyan, Ohanyan və digərləri əkdikləri zəhərli toxumun bəhrəsini görürlər. Azərbaycan həmişə kişiyana mübarizə aparıb. Azərbaycan onsuz da kifayət qədər gücə, insani və hərbi resurslara malikdir ki, Dağlıq Qarabağla bağlı addım atsın. Bizim yeganə istəyimiz budur ki, Ermənistan işğal altındakı ərazilərimizi azad etsin, ona da nail olacağıq”.

Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətini Ordu Günü münasibətilə ürəkdən təbrik edir və tezliklə qələbə bayrağımızı Şuşamızda ucaltmasını arzulayırıq!

❑ **Cavid TURAN**



# Abbas Abbasovun qardaşının həbsi xəbəri təsdiqlənir

## Nadir Abbasovun banka 10 milyon borclu olduğu deyilir; Aydın Abbasov xəbəri nə təsdiq, nə də təkzib etdi

**Baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun qardaşı Nadir Abbasov həbs edilib. Bu barədə dia.az saytı Gəncədəki Abbasovlara yaxın mənbənin “Təzadlar”a verdiyi məlumata istinadən xəbər yayıb.**

Xatırladaq ki, Nadir Abbasov Gəncənin keçmiş polis rəisi olub, istefada olan polkovnikdir. Onun bir müddət əvvəl Gəncədə keçmiş Yeyinti Ticarəti İdarəsinin bazasında soyuducular tikmək üçün kredit götürdüyü bildirilir. İddiaya görə, bir neçə gün əvvəl onu DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırıblar. Ondan krediti dərhal qaytarması tələb olunub və hələ də bu idarədə saxlanılır.

Məsələ ilə bağlı hüquq-mühafizə orqanlarından hər hansı məlumat ala bilmədik. Gəncədəki mənbələrimiz isə “Yeni Müsavat”a xəbəri təsdiqlədi. “Abbasovlar qonşularla təmaslardan qaçırlar, hər hansı açıqlama vermirlər. Lakin eşitdiyimizə görə, Nadir Abbasovun banka 10 milyon dollar borcu olduğundan həbs edilib və hələ də nəzarətdədir” deyə, adının çəkilməsini istəməyən mənbə bildirdi.

Əlavə edək ki, mətbuatda bir neçə gün əvvəl Abbas Abbasovun digər qardaşı Həmid Abbasovun həyat yoldaşının Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tərəfindən bağça müdiri vəzifəsindən azad olunduğu barədə də xəbər verilib. Məlumata görə, onun qızı da işdən çıxarılıb.

“Yeni Müsavat” olaraq bu məsələləri Gəncə rəhbərliyi ilə dəqiqləşdirə bilmədik. A.Abbasovun deputat oğlu Aydın Abbasov isə qəzetimizə açıqlamasında xəbəri nə təsdiq, nə də təkzib etdi. Bildirdi ki, Strasburqdan yenicə qayıdıb, odur ki, yazılanlardan xəbərsizdir. A.Abbasov məsələləri araşdırandan sonra ətraflı açıqlama verəcəyini desə də, sonrakı cəhdlərimizdə telefon zənglərimizə cavab vermədi.

❑ **Cavid TURAN**

**Türkiyədə 7 iyun seçkisindən sonra parlamentdə təmsil olunmaq hüququ qazanan 4 partiyadan yalnız AKP parlament sədrliyinə namizədini açıqlamayıb. MHP professor Ekmeleddin İhsanoğlunun, CHP Deniz Baykalın, HDP isə Dengir Mir Mehmet Fıratın namizəd olacağını açıqlasa da, AKP hələlik susur.**

# Türkiyə yeni hökumətini "axtarır"

## Havadan artıq erkən seçki qoxusu da gəlməyə başlayıb



Analitiklər bildirirdilər ki, partiyaların Türkiyə Böyük Millət Məclisinə kimi namizəd irəli sürəcəyi koalisyon hökumətin hansı partiyalardan formalaşacağı məsələsinə də aydınlıq gətirə bilər. CHP-nin Deniz Baykalın namizədliyini irəli sürməsi diqqəti onun seçkidən 2 gün sonra prezident Rəcəb Tayyib Ərdoğanla görüşünə yönəldib. Türkiyə qəzetləri yazır ki, təşəbbüs prezidentdən gəlsə də, D.Baykal bu görüşlə çevrəsinə yüksək səviyyədə dəstəklənməsi ilə bağlı mesaj vermək istəyib.

CHP-ni parlament sədri seçkisində Deniz Baykalın təmsil etməsi, eyni zamanda CHP-nin AKP ilə koalisiyaya o qədər də soyuq baxmadığını ortaya qoyub.

MHP-nin Ekmeleddin İhsanoğlunun üzərində dayanması da, professor E.İhsanoğlunun Ərdoğanla yaxın münasibətləri haqqında söhbətləri gündəmə qaytarıb. Yada salaq ki, uzun illər İslam Əməkdaşlıq Təşkilatının baş katibi olan "Ekmel bey"in Ərdoğanla yaxşı münasibətləri olub. Ötənilki prezident seçkisində CHP və MHP-dən E.İhsanoğlunun vahid namizədliyinə etiraz edənlər də məhz bu məqamı önə sürürdülər.

Maraqlıdır ki, HDP-nin namizədi Dengir Mir Mehmet Fırat da Ərdoğana yaxın siyasilərdəndir. O, AKP-nin qurucularından sayılır.

Keçmiş millət vəkillərindən Hüseyn Aygün namizədlərlə bağlı maraqlı bir twit yazıb: **"Toplayıram, çıxıram, bütün yollar Tayyib Ərdoğana çıxır. Qarışıq..."**

Ölkədəki siyasi proseslər bir daha MHP-AKP koalisiyasının daha real olduğunu ortaya qoyub. Bütün parametrlərə görə AKP-nin MHP ilə anlaşması digər siyasi partiyalara nisbətdə daha asan görünür. Çünki solçu CHP-lilərlə anlaşmaq dinçi AKP-lilər üçün o qədər də qolay görünmür. "İmanlı MHP" bu məsələdə daha önə keçir.

Bununla belə, hələlik AKP-CHP anlaşması da istisna deyil. Verilən xəbərlərə görə, prezident Ərdoğan bu birlik modelinə də isti baxır. Ən azından, MHP müxalifətdə qalmaq üçün direniş göstərsə, AKP CHP-nin bəzi şərtlərini qəbul etməklə Atatürkün partiyası ilə anlaşmaya gedə bilər. Çünki bu variantlardan heç birinin alınmaması erkən seçki anlamına gəlir ki, bu da AKP-yə hər hansı uğur vəd etmir. Seçki uzmanları deyir ki, əgər ölkə təkrar seçkiyə getsə, AKP 7 iyunla müqayisədə daha az səs qazana bilər.

CHP lideri K.Kılıçdaroğlu da son günlər verdiyi mesajlarda ənənəvi rəqibi ilə anlaşa biləcəyinə işarə vurur. "Milliyət" qəzeti yazır ki, Ərdoğan Kılıçdaroğluna "Konstitusyon cizgilərimdə qalacağam, koalisyon problemi yaratmayacağam" xəbəri göndərib.

Qəzet yazır ki, AKP sədri Ahmet Davutoğlu da CHP ilə koalisiyanın tərəfdarıdır. AKP sədrinin CHP-yə isti münasibəti MHP-nin tələblərinin sərtliyi ilə izah edilir. Yada salaq ki, MHP AKP ilə koalisiyaya getmək üçün, Konstitusiya dəyişiklikləri və çözüm sürəcinin dayandırılmasını, 17-25 dekabr böyük rüşvət olaylarının araşdırılmasını tələb edir. Bu şərtləri qəbul etməsi AKP-nin 13 illik siyasətinin yanlış olduğunu etiraf etməsinə bərabərdir. Ona görə də partiya rəhbərliyi MHP ilə uzlaşmaq məsələsində ciddi tərəddüd içərisindədir. Ancaq o da bəllidir ki, CHP ilə koalisiya uzunmüddətli hökumət vəd etmir. 2 partiya parlamentdə böyük üstünlükdə olsalar belə, prinsipial məsələlərdə ideoloji baxışın fərqliliyi bu modelin uzun müddət ölkəni yönəldəcəyini söyləməyə imkan vermir.

Türkiyə mediası yazır ki, CHP-nin koallisiya danışıqlarında da MHP-dən önə keçməsi HDP-də müsbət qarşılanır. Aydındır ki, parlamentdə təmsilçilik qazanmasına baxmayaraq MHP-nin hakimiyyətə gəlişi HDP-nin maraqlarına uyğun deyil. Çünki MHP açıq şəkildə HDP-ni PKK terro qruplaşmasının siyasi qanadı adlandırır, partiyanı ölkənin ərazi bütövlüyünə təhlükə sayır. HDP-nin sivil mübarizəni davam etdirəcəyi vədləri də MHP-yə görə inandırıcı deyil.

HDP seçkini qazanmaqla böyük uğura imza ata bilsə də indiki durumunu o qədər də rahat saymaq olmaz. Məsələ burasındadır ki, HDP 13 faiz səs toplasa da sonrakı mənzərə vətəndaşların böyük bir hissəsini qane etmir. Xüsusən seçki kampaniyası boyu barış mesajları verən HDP-nin Türkiyə Böyük Millət Məclisinin ilk iş günündəki davranışları seçkilərə qədər kürdlərin siyasi həyata gəlişinə tərəfdar olanları belə məyus edib.

Yada salaq ki, HDP-li deputatlar dövlət himninin oxunması zamanı ayağa qalxsalar da himni oxumayıb. Türkiyədə Milli Marş- dövlət himni olduqca həssas məsələ sayılır, siyasilərin milli marş səslənərkən onu oxumaması Türkiyə Cümhuriyyətinə hörmətsizlik kimi qəbul edilir. Bununla da "kürdləri dağdan endirib siyasi həyata gətirək, sivil davranışlarla problemlər çözülsün" siyasətinin effektiv olmadığı ortaya çıxıb.

İkinci bir məqam, HDP-nin uzun illərdir PKK lideri Abdulla Öcalanı həbsdən azad edərək parlamentə gətirmək planının olduğu bəllidir. Bu seçkilərdə Öcalanın qardaşı qızı millət vəkili seçilib. Və o, artıq HDP-nin parlament rəhbərliyində təmsilçisidir. Dəniz Baykalın idarə etdiyi ilk toplantıda Öcalanın Məclis başqanlığında əyləşməsi çoxları üçün xoş olmayan görüntü yaradıb.

Xüsusən milliyyətçi kəsimə yaxın olan dairələr TBMM-dəki bu tablonu Türkiyə dövlətinə, PKK-nın qətl etdiyi insanların ruhuna həqarət sayır. Bu səbəbdən də erkən seçki tərəfdarlarının sayı çoxalır. Ehtimal edilir ki, ilk toplantıda HDP-nin aktivinə yazılan iki namünasib məqam təkrar seçkidə partiyanı 10 faizlik həddin arxa üzündə qoya bilər.

❑ **Aygün MURADXANLI**



# "İŞİD-in Qafqaza gəlməsi ciddi təhlükədir"

## Sülhəddin Əkbər: "İŞİD xüsusilə də Şimali Qafqaz üçün təhdiddir"

**İŞİD Şimali Qafqazda öz vilayətini yaratdığını elan edib. Bu barədə "Institute for the Study of War" İŞİD-in mətbuat katibi Əbu Məhəmməd əl-Adnaniyə istinadən yayıb. İŞİD-in yeni "Qafqaz əyalətinin" başçısı isə Əbu Muhammed əl-Kadaridir.**

Qeyd edək ki, İŞİD-in Qafqaza yerləşməsi ilə bağlı daha əvvəl də məlumatlar yayılmışdı. Ancaq Şimali Qafqazda mövcud olan radikal islamçı qrupların birləşdiyi "İmarət Qafqaz" təşkilatı İŞİD-ə tabe olmaqdan imtina edirdi. Lakin əl-Adaninin son açıqlamasından məlum olur ki, artıq Dağıstan, Çeçenistan, İnquşetiya, Kabardin-Balkar və Qaraçay-Çərkəzdəki silahlı qrupların rəhbərləri İŞİD lideri Əbu Bəkr əl-Bağdadiyə biət ediblər.

İŞİD hazırda İraq və Suriya ilə yanaşı Mərkəzi və Şimali Afrika, o cümlədən Misir, Liviya, həmçinin Əfqanıstan, Pakistan kimi ölkələrdə təsirini yayıb. Artıq bu bölgələrdə İŞİD adına əməliyyatlar keçirilir. Şimali Qafqaza İŞİD-in gəlməsi haqda daha əvvəllər də xəbərdarlıq edilib. Qeyd edək ki, postsovet respublikalarından 3 minə yaxın insanın İŞİD sıralarında döyüşdüyü ehtimal olunur. Onların böyük qismi, təxminən 1700 nəfərdən çoxu Rusiya vətəndaşlarıdır ki, onların da böyük qismi Şimali Qafqazdan olanlardır. Rusiya xüsusi xidmət orqanları dəfələrlə bu barədə xəbərdarlıq edib. Ekspertlərə görə, Rusiya ordu və kəşfiyyat rəsmilərinin artıq bir ilə yaxındır ki, region ölkələri ilə ehtimal olunan İŞİD təhlükəsinə qarşı məsləhətləşmələr aparıb.



Sülhəddin Əkbər

Bu arada məlum olub ki, İŞİD yaraqlıları Rusiyaya qayıdırlar. Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Yevgeni Lukyanov bildirib ki, İŞİD üzvləri Türkiyə Rusiya sərhədini pasportunu itirmiş turistlər kimi keçirlər. ANS-in məlumatına görə, İŞİD üzvləri pasport almaq üçün Rusiya diplomatik missiyasına müraciət edirlər. İŞİD-in Rusiya üçün ciddi problem olduğunu vurğulayan Lukyanov "Onlar artıq qayıdırlar",- deyə vurğulayıb.

**Azərbaycan-Atlantika Əməkdaşlıq Assosiasiyasının və Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərin fikrincə, bu hadisə ciddi təhlükədən xəbər verir. Ekspert İŞİD təhlükəsinin artıq bizim regiona gəldiyini deyir:** "Bu, ciddi təhdiddir. Bu təhdidin pontensial təhlükədən real çevrilməsi də açıq görünür. Burda iki məqama diqqət etmək yetərlidir. Birincisi, regionun xərtəsinə baxmaq lazımdır. İŞİD Pakistandan Şimali Afrikaya qədər böyük bir ərazidə öz fəaliyyətini genişləndirib. Eyni zamanda hazırda Şimali Qafqaz və Mərkəzi Asiyada İŞİD öz aktivliyini artırıb. Azərbaycan isə İŞİD-in yayıldığı bu coğrafiyanın mərkəzində yerləşir.

İkincisi, nəzərə almaq lazımdır ki, İŞİD sıralarında Azərbaycan vətəndaşları döyüşürlər və zaman-zaman Azərbaycanı da açıq şəkildə təhdid edirlər. Bu məqsədlə xüsusi təbliğat xəritələri buraxılır, eyni zamanda azərbaycanlı İŞİD-çiləri bir araya toplayıb, onlara gələcək hədəflər də göstərilir".

**Azərbaycan hakimiyyətinin də təhlükəni ciddi qəbul etdiyini qeyd edən S.Əkbərin fikrincə, bu təhlükə Azərbaycanı da təhdid edir:** "Düşünürəm ki, bu potensial təhdidə ciddi baxmaq lazımdır. Mənə elə gəlir ki, vəziyyəti Azərbaycan hakimiyyəti də bütün ciddiyyəti ilə dərk edir. Belə olmasaydı, Azərbaycan Cinayət Məcəlləsinə xaricdə silahlı qruplara qoşulanlara ağır cəza nəzərdə tutan müvafiq dəyişikliklər edilməzdi. Düşünürəm ki, bu, Azərbaycan üçün ciddi bir təhdiddir və real təhlükəyə çevrilmə ehtimalı da getdikcə yüksəlir".

**S.Əkbər deyir ki, İŞİD-in Qafqazda peyda olması ilə yanaşı qruplaşma Orta Asiya respublikalarını da təhdid edir:** "Qafqaz Əmirliyinin İŞİD-lə əlaqələri olsa da, bu qruplaşmaya birbaşa tabe olmamışdı. Ancaq indi onlar da İŞİD-in tabeliyinə keçdiklərini bəyan edirlər və artıq İŞİD də bu biəti qəbul edib. İkinci tərəfdən, onu da nəzərə almaq lazımdır ki, artıq İŞİD Mərkəzi Asiyanın sərhədlərinə doğru irəliləyir. İŞİD-ə yaxın silahlı qruplar, xüsusən də Özbəkistan İslam Hərəkatı və "Cundullah" başda olmaqla, 5 minə qədər silahlının cəm olduğu qruplaşmalar artıq Əfqanıstanın şimalında Mərkəzi Asiyanın cənub sərhədləri boyunca yerləşərək öz mövqelərini gücləndirməyə çalışırlar. Bilirsiniz ki, Rusiyanın xüsusi xidmət orqanları MDB respublikaları xüsusi xidmət orqanları rəhbərləri ilə birlikdə bu təhdidi müzakirə ediblər. Və birgə koordinasiyalı fəaliyyətlə bağlı qərar qəbul ediblər. Bu baş verənlər onu göstərir ki, dünyada və regionda gedən geopolitik prosesləri nəzərə alsaq Rusiya üçün xüsusilə də Şimali Qafqaz və bütövlükdə Mərkəzi Asiya üçün ciddi təhdiddir və real təhlükəyə çevrilmə ehtimalı artıb. Ola bilsin ki, İŞİD-in terror əməliyyatları əvvəlcə aşağı intensivlikdə başlaya bilər, sonradan isə geniş miqyaslı müharibəyə çevrilə bilər. Necə ki, biz bunu İraqda və Suriyada görürük".

❑ **KƏNAN**

# Qalmaqallı sabiq səfir Milli Şuraya gətirilir, çünki...

**Son günlər qalmaqallı çıxışları ilə gündəmə gələn "qiyamçı" səfir Arif Məmmədov bütün kartları yavaş-yavaş açır. 20 ildir hakimiyyətin Avropada siyasi təbliğat yükünü-çamadanını daşıyan, Avropa Şurasında Azərbaycan tənqidçilərinə "demokratiya dərsi keçən" səfirin qəfil müxalifətçiyə dönüşü əvvəldən də xeyli suallar yaratmışdı.**

Hələ İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanındakı nümayəndəsi postundan qovulmamışdan "Yeni Müsavat" da daxil, yerli mətbuat Arif Məmmədova "müxalifət diplomu" hazırlandığını, tezliklə onun bəyanatlarının daha da sərtləşəcəyini və nəhayətdə Bakıda "müxalifət lideri" statusunadək şişirdiləcəyini yazmışdı.

Bakıda müxalifəti hər cür çirkaba batıranların, şərləyənlərin dünənədək adını bilmədikləri Arif Məmmədova sahiblənmələri, onu qəzetlərində müdafiə etmələri də təbii ki, təsadüf deyildi. Tezliklə AXCP sədrinin dili ilə danışaraq "uca millətə" xitab edən Arif Məmmədova niyə bu qədər önəm verildiyi də aydın idi. Sifariş belədir...

Arif Məmmədov da borclu qalmadı. "Əsl müxalifətçiləri" və "əsl müxalifət" qəzetini tezliklə tanıdı və onlara dəstək verdi. Onun srağagün Milli Şurada təmsil olunan adamlara dəstək çağırışından saatlar keçməmiş "əsl müxalifət qəzetinin batması" haqda xəbərin yayılması da təsadüf ola bilməz. Bu, hamını şərləyən liderin nəzarət etdiyi qəzetin tanış stilidir. Pul verin, müxalifəti yaşadaq... Arifə bir işarə də yetər axı. Bəlkə də bu, iqtidarı şübhələndirməmək üçün ortaya atılmış plandır. Yəni pul gəlib artıq, izi azdırılır...

Yeri gəlmişkən, Bakıda hamının bəyanatlarını lupa ilə oxuyan, iz axtaran firqə liderləri fəxri sədrləri Rüstəm İbrahimbəyovun ermənipərəst bəyanatına cavab vermədilər. Niyə çıxarmadılar Rüstəm bəyi Milli Şuradan? Axı onun nəyi Milli Şuranın bu qədər xoşuna gəlir ki, fəxri sədrlikdə saxlayırlar? Bəlkə məşhurluğu? Bəlkə Rusiyaya hədsiz bağlılığı? Bəlkə pulu?



Bəs Arif Məmmədovun müxalifətə göndərilməsində məqsəd nədir? Belə görünür ki, hakimiyyətin "öz şinelindən" çıxan Abbas Abbasovla Rüstəm İbrahimbəyovun Kremlin xeyir-duası ilə yaratdıqları "Milyarderlər İttifaqı" və Milli Şura layihəsi parlament seçkiləri ərəfəsi təkrarlanacaq. Arif Məmmədovu abıvatel müxalifətçi üçün cəlbedici edən onun vaxtilə səfir işləməsidir. Abbas Abbasov-Rüstəm İbrahimbəyov "dvoykası" vaxtilə bu metoddan ustalıqla istifadə etdilər. Müxalifəti bir Rusiya projesi ətrafında birləşdirərək hətta İsa Qəmbərin "Avrointeqrasiya" sözünü belə sənədə zorla salanlar bu dəfə Rusiyanın xüsusi kəşfiyyat məktəbini keçmiş sabiq səfiri ortaya çıxarıblar.

## Rusiya daha bir adamını "müxalifət"in başına keçirdi

Arif Məmmədova "müxalifət diplomu" hazırlandığı, tezliklə onun bəyanatlarının daha da sərtləşəcəyi və nəhayətdə, Bakıda "müxalifət lideri" statusunadək şişirdiləcəyi barədə iddialar təsdiqləndi; rəsmi Bakı bu projenin arxasında dayananları bilir və bu səbəbdən Arif Məmmədov məsələsini böyütmür...

A.Məmmədov bu adamları necə tez tanıdı, necə tez inandı, necə tez güvəndi axı? İllərdir bir liderlə yol gedən arxadaşları sonra "onu tanımamışıq" deyirsə, dünən "cik" edən Arif Məmmədov nə tez ayırd edə bildi saxta ilə kristal daşları? Bu adam "uca millətlə" necə səmimi ola bilər axı?

Arif Məmmədovun müxalifətçi olmaq, kimə inanmaq öz seçimi, öz işidir. Azərbaycan cəmiyyətini aldatmaq, yeni Rüstəm İbrahimbəyov obrazında, həm də ölkədən kənarda oturacaq bir "lider" yaratmaq cəhdi isə ortadadır. Arif Məmmədovun "kruqu" Rüstəm İbrahimbəyovun yanındakılardır.

Xəbərlərə görə, çox tezliklə Arif Məmmədov Bakıdakı "inanılmış adamlarına" müraciət edərək ona rəsmən müxalifətçilik mandatı verilməsini istəyəcək. Bu, hansısa partiyaya deyil, Milli Şura səviyyəsində təmsilçilik olacaq. Bundan sonra böyük ehtimalla Rüstəm İbrahimbəyov "səhhəti ilə" və ya "işlərinin çoxluğu" ilə bağlı Milli Şuradan gedərək yerini Arif Məmmədova verəcək. Amma onun fəxri deyil, Cəmil Həsənli ilə birgə həmsədrliyi daha gözlənilləndir. Bu, Milli Şurada liderliyi Cəmil Həsənliyə güzəştə gedən partiya sədri üçün də məqbul variantdır. Çünki məlumatlara görə, C.Həsənli bəzi hallarda yaxın silahdaşını sədrlikdən getməklə hədələyir. Avropalı Arif Məmmədovun Milli Şuraya gətirilməsi isə C.Həsənlinin əl-qolunu da qismən bağlayacaq və onun qurumdan mümkün gedişi halında "şok effekt" doğurmayacaq.

Bu dəfə isə danışdırılan, ortaya sürülən "lider" Rusiyada yaşamır, Avropada məskunlaşıb. Amma xətt də, bu xətdəki hər kəs də eyni koordinatdan idarə olunanlardır.

Rəsmi Bakı bu projenin arxasında dayananları bilir və bu səbəbdən Arif Məmmədov məsələsini böyütmür. İqtidar texnoloqları onu görməzdən gəlirlər; çünki onu əslində yanan bina ilə bağlı heç bir vətəndaşlıq hissinin danışdırmadığının fərqindədir və niyə, məsələn, Müsavata deyil, Milli Şuraya üz tutduğunu da bilirlər.

Avropa Oyunlarından sonra Azərbaycan parlament seçkiləri hazırlıqlarına köklənəcək. Rusiya isə bu prosesə indidən hazırlaşır. Qalır düyməyə basmaqla onları tam hərəkətə keçirmək...

❑ **"Yeni Müsavat"**

# Üç NİDA üzvü bəyanat yaydı

## "Ekspertiza xərclərini bizdən almaq istəyirlər, ödəməyəcəyik..."

**Nida Vətəndaş Hərəkatının keçmiş vicdan məhbusu olan üzvləri Üzeyir Məmmədli, Zaur Qurbanlı və Şahin Novruzlu icra məmurlarının təzyiqləri ilə bağlı aşağıdakı məzmunda bəyanat verib. Bəyanatda bildirilir: "2013-cü ildə baş vermiş "Əsgər ölümlərinə son" aksiyalarının artan tempinin qarşısını almaq üçün hakimiyyət tərəfindən uydurulan cinayət işi çərçivəsində 8 nəfər, o cümlədən biz - Zaur Qurbanlı, Üzeyir Məmmədli və Şahin Novruzlu həbs olunduq. Cinayət işi çərçivəsində 3 nəfərin evinə Milli Təhlükəsizlik Nazirliyi (MTN) əməkdaşları tərəfindən "molotov kokteylləri" və narkotik maddə atılmış, bu böhtanlar "sübut" kimi rəsmiləşdirilmiş və sonda bizə 6-8 il azadlıqdan məhrumetmə cəzası verilmişdir. Hazırda bu cinayət işi üzrə 4 nəfər həbsdə, 4 nəfər, o cümlədən biz azadlıqdayıq. Buna baxmayaraq, məhkəmə qərarlarını icra orqanları hələ də bizdən əl çəkmirlər.**

MTN əməkdaşları tərəfindən evlərə qoyulan butulkaların və narkotik maddələrin ekspertizası xərclərini bizdən almaq istəyirlər. Bu ekspertizalar saxta, qondarma olmaqla yanaşı, həm də lüzumsuz olub. Çünki ekspertiza predmetləri ittiham tərəfindən - dövlət orqanları tərəfindən evlərə qoyulmuşdur və onlar evlərə qoyduqlarının tərkibini çox yaxşı bilirlər".

**Keçmiş vicdan məhbusları bəyanatlarında həmçinin bildiriblər ki, onlara verilən hökm siyasi sifarişli və saxta olduğuna görə ondan irəli gələn hər hansı tələbi icra etməyəcəklər:** "Əks təqdirdə, bu, həmin hökmlə hələ də layiq olmadıqları cəzanı çəkən 4 yoldaşımıza, eləcə də hüquqa saygısızlıq olar. Biz hüquqazidd olan bu hökmdən kassasiya şikayəti vermişik və bu iş Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) gedəcək. Biz AİHM-də işi udacağımıza və hüquqlarımızın, yoldaşlarımızın azadlığının bərpa olunacağına inanırıq. Azərbaycan qanunvericiliyinə əsasən, hökm qanuni qüvvəyə minsə də, hüquqazidd və siyasi sifarişli olduğuna görə bu hökmdən irəli gələn xərcləri ödəmirik.

Bununla əlaqədar icra məmurları tərəfindən son günlər çoxalan təzyiqlərə görə bəyan edirik ki, biz bunu siyasi təzyiq hesab edirik və hakimiyyətin bu yolla bizi sıxışdırmasına etiraz edirik".

❑ **Sevinc TELMANQIZI**



# "Dostluq" parkına görə tutulan iş adamı xalq artistinin kürəkəni çıxdı

## "Dostluq" parkında villa sahibi olan məmurların dosyesi hazırlanır - həbslər olacaq

**Binəqədi rayonu ərazisində baş vermiş faciəli yanğınla bağlı yaradılan Dövlət Komissiyasının iclasında İlham Əliyev çox sərt çıxış edərək, açıq şəkildə ölkədəki bir sıra qanunsuzluqların və özbaşınalıqların başında vəzifəli şəxslərin, məmur korpusunun dayandığını dedi. Prezident Səbayel rayonu ərazisində yerləşən "Dostluq" parkının ərazisinin qanunsuz zəbt olunmasına və orada villalar tikilməsinə diqqət çəkərək dedi:**

"...İndi Bakıda, Azərbaycanda nə qədər qanunsuz evlər tikilir?! Mən soruşanda, sanki heç kimin xəbəri yoxdur. Yerli icra başçılarının, şəhər icra başçılarının - heç kimin xəbəri yoxdur! Bu yaxınlarda istifadəyə verilən yeni idman obyektləri ilə tanış olarkən, vaxtilə Heydər Əliyevin şəxsi iştirakı ilə salınmış "Dostluq" parkının bir hissəsinin yenə də zəbt edildiyini gördüm. Mən 7-8 il əvvəl ora getmişdim. Görmüşəm ki, "Dostluq" parkında ağaclar qırırlar, villalar tikilir. Hacıbala Abutalıbova göstəriş verdim ki, gedin, aydınlaşdırın... Bütün tikilən villalar qanunsuzdur! Dedim ki, gedin, o villaları dağıdın, qoy onları tikənlər üçün dərs olsun! İndi o gün gəlirəm, görürəm ki, yenə də düz "Dostluq" parkının yanında - yamacda villalar tikilir. Dedim ki, gedin öyrənin ki, bu villaları kimlər tikir. Heç bir adam çıxmadı! Dedim ki, gedin bir villanı sökün, görək bunun arxasından kim çıxacaq! Heç kim çıxmadı! Dedim ki, bu villalar heç kimə məxsus deyilsə, o villaları sökün dağıdın, başqalarına da dərs olsun! Gedib qanunsuz yollarla özəlləşdirirlər, zəbt edirlər, hasarlayırlar! Elə istinad divarları tikilib ki, bəlkə də bir neçə milyon manat təkcə o istinad divarlarının tikintisinə sərf olunub. Bu qədər özbaşınalıq olmaz! Dəfələrlə demişəm ki, qayda-qanun olmalıdır, ilk növbədə, vəzifəli şəxslər nümunə göstərməlidirlər. Yerlər zəbt edilir, qanunsuz tikililər aparılır, sonra da bunu qanunsuz sənədləşdirirlər...".

Prezidentin göstərişindən sonra "Dostluq" parkının ərazisini müxtəlif şəxslərə satan Tərlan Hüseynov həbs olunub. Dəllallıq edən bu şəxs torpaq sahələrinin hansı məmurların vasitəsilə, nə qədər ödənc hesabına satıldığını detallı şəkildə açıqlayıb. Hazırda əraziləri alıb orada qanunsuz olaraq villalar inşa edən şəxslərin kimliyi də müəyyən olunub. Məlum olub ki, qanunsuz olaraq zəbt olunmuş torpaq sahələrini alanların tam əksəriyyəti elə məmurların özləridir. Belə təxminlər var ki, hüquq-mühafizə orqanları Avropa Oyunları başa çatdıqdan sonra dərhal həbslərə başlayacaq. Ərazidə 4-5 mərtəbəli villaların tikintisinə göz yuman müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri, onları tikinti üzrə müavinlərinin də qandallanacağı gözlənilləndir.

İstiqlal.az saytı yazır ki, parkın ərazisində torpaq sahəsi olanlardan biri də Yardımlı rayon icra başçısının müavinidir. O, 650 min manat ödəməklə ərazidə 8 sot torpaq alıb. Sayt yazır ki, Tərlan Hüseynov saxlanılaraq barəsində məhkəmə qərarı ilə 4 aylıq həbs-qətimkan tədbiri seçiləndən sonra ərazidən torpaq alan ilk məmur kimi Yardımlı rayon icra başçısının müavini Mahir Mirzəyevin adını çəkib. Məlumatlı mənbə bildirir ki, icra başçısı müavininin villası yarımçıq vəziyyətdə imiş. Həmin ərazinin alınması üçün Mahir Mirzəyevin 600 min manatdan çox xərci çıxdığı deyilir. İcra başçısının müavini ərazidə torpağı 4 il əvvəl alıb. Həmin ərazidə 1 sot torpaq sahəsinin qiymətinin təxminən 80-120 min manat arası olduğu deyilir. İcra başçısının müavini ərazidəki torpaqda villasının tikintisinə keçən il başlasa da müəyyən səbəblərdən yarımçıq qalıb. Yarımçıq tikinti üçün isə Mahir Mirzəyevin təxminən 100-150 min manat xərc çəkdiyi iddia olunur.

Qeyd edək ki, həbs olunan T.Hüseynov tanınmış rejissor, xalq artisti Tofiq İsmayılovun kürəkənidir.

❑ **E.HÜSEYNOV**



# Sərkisyanı kim və necə bitirir?

**Azər RƏŞİDOĞLU**

**Ermənistanda gərginlik artır. Vəziyyət hər an nəzarətdən çıxa bilər. Müxalifət prezident Sərkisyanı küncə sıxmağı bacarıb. Görünən budur ki, Ermənistan hakimiyyətinə konkret şərtlər irəli sürülüb və rəsmi İrəvan geri çəkilə bilmir. İndi hamını bir sual düşündürür - Ermənistanda baş verənləri kim idarə edir? İlk baxışdan, etirazlar zamanı səslənən "demokratiya" şüarları və dalğalanan Avropa Birliyi bayrağı bu ölkədə narıncı inqilabın baş verdiyinin göstəricisidir.**

Lakin vəziyyət elə də sadə deyil. Məsələ ondadır ki, Ermənistan və Azərbaycanda baş verəcək dəyişikliklər vahid rakursdan təhlil edilir və odur ki, çox zaman bir-birinə bənzəyir. Bu baxımdan, İrəvanda baş verənlərdə "Azərbaycan izi"də axtarmaq mümkündür.

Son zamanlar belə bir məsələ müzakirə edilir ki, Bakı və Moskva arasında bir neçə işğal olunmuş rayonun qaytarılmasına dair anlaşma var. Əgər bu plan reallaşarsa, Bakını hansısa mühüm məsələlərdə güzəştə vadar edən Kreml İrəvandakı siyasi situasiyanı da öz xeyrinə dəyişə bilər. Maraqlıdır ki, son zamanlar Ermənistan prezidenti Sərkisyan İrəvanı Rusiyanın forpostu olmaqdan xilas etmək üçün Qərblə anlaşmağa başlayıb. Moskva Ermənistandakı situasiyanı Sərkisyanın nəzarətindən çıxartmaq və özünün vassalı olan sabiq prezident Robert Köçəryanı və yaxud başqa bir marionetini hakimiyyətə gətirmək istəyir.

Burada daha bir məqamı təhlil etməyə ehtiyac yaranır. Azərbaycanı yeni savaşa şirnikləndirir və işğal olunmuş torpaqlarımızın azad olunacağına dolayısı ilə yardım edəcəyinə "zəmanət" verir. Görünən də budur ki, Rusiyaya Qarabağın azad edilməsi deyil, yeni savaş lazımdır. Aydın məsələdir ki, savaş başlayarsa, ruslar son anda öz tarixi müttəfiqləri olan ermənilərə yardım edə bilərlər, lakin bu zaman İrəvan tamamilə diz çökdürülə bilər. Lakin bu savaş Sərkisyan hakimiyyətinin sonunu gətirdiyi kimi, Azərbaycan hakimiyyətinə də ciddi problemlər yarada bilər.

İrəvandakı son mitinqlərin təhlili bunu deməyə əsas verir - Kreml "cızığından çıxmış" Sərkisyanı cəzalandırmaq istəyir. Bu fonda Sərkisyana qarşı Moskvapərəst müxalifətin gücləndirilməsi Ermənistan prezidentini əks addımlar atmağa vadar edir. 2 il öncə Qagik Sarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" Partiyası ilə sabiq prezident Levon Ter-Petyosyanın başçılıq etdiyi "Erməni Milli Konqresi" birləşərək, Kremlin çətiri altına keçdi və bu baxımdan kifayət qədər güclü koalisiyanın bir neçə ay öncə Sərkisyan tərəfindən darmadağın edilməsi, Kremli ehtiyat variant kimi qoruduğu Köçəryana yenidən "stavka" etməyə sövq edir. Moskva başqa bir vassalını hakimiyyətə itirmək arzusundadır. Odur ki, mitinqlərlə Sərkisyanı zəiflədə və bir neçə işğal edilmiş rayonun İrəvanın nəzarətindən çıxmasına yardım da edə bilər.

Bu plan Sərkisyanın fiaskosuna və Köçəryan variantının reanimasiyasına yardım edə bilərdi. Amma diqqət çəkən həm də budur ki, Bakı Qərblə oynadığı "inteqrasiya" oyununu indi də ruslarla davam etdirmək istəyir.

Lakin Bakı ilə məsafə saxlamağa başlayan Qərbdən fərqli olaraq, Moskvanın bu halda hansı problemlər yarada biləcəyini Azərbaycanda düzgün dəyərləndirirlər. Bu oyunların pərdəarxasını bildiyindən Qərb regiondakı oyunlardan məsafələşmək yolunu tutur. Lakin son anda əsas söz sahibinin də elə Qərb ola biləcəyi ehtimalı da az deyil. Hələ ki top ruslardadır...

# Leyla və Arif Yunusların işi məhkəməyə göndərilir

## Onların cinayət işindən dövlətə xəyanət maddəsinin ayrılması ümidləri artırıb; Rauf Mirqədirovun isə istintaqında dəyişiklik yoxdur

**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus və həyat yoldaşı Arif Yunusun barəsində başlanan bir neçə maddə üzrə cinayət işindən dövlətə xəyanət maddəsi ayrıca icraata götürülüb. Bu barədə mətbuata açıqlamasında Leyla Yunusun vəkili Elçin Qəmbərov məlumat verib.**



Vəkil qeyd edib ki, digər maddələr üzrə artıq istintaq işi yekunlaşıb, yaxın günlərdə məhkəməyə göndəriləcək. Elçin Qəmbərov dövlətə xəyanət maddəsi üzrə istintaqın dayandırılması ehtimallarının olduğunu da bildirib: "Məhkəmədə yalnız iqtisadi maddələrə baxılacaq. Vətənə xəyanət maddəsi bu işdən kənarlaşdırılıb. Bu maddə üzrə istintaq dayandırıla da bilər, ayrıca davam etdirilə də bilər. Bu qərarı artıq istintaq orqanları verəcək".

Yunusların işindən dövlətə xəyanət maddəsinin ayrılmasını yüngülləşdirici hal, Azərbaycan hakimiyyətinin yumşalması kimi qələmə verənlər var.

Qeyd edək ki, dövlətə xəyanət maddəsi irəli sürülən məhbuslardan biri də "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovdur. Məhbus jurnalistə qarşı bu ağır maddə üzrə atılacaq addımlar maraq doğurur.

**R.Mirqədirovun vəkili Elmar Süleymanov dövlətə xəyanət maddəsi üzrə istintaq prosesinin davam etdirildiyini söylədi:** "Yanaşma bir az qüsurludur. Çünki Yunuslar barəsində dövlətə xəyanətdən əlavə, bir neçə iqtisadi maddələr var. Yalnız o maddə ayrıca icraata götürülüb, digərləri üzrə iş məhkəməyə göndəriləcək. Amma Rauf bəyə və Yunuslara qarşı irəli sürülən dövlətə xəyanət maddəsi üzrə hələ istintaq aparılır. Baza olaraq, bu maddələrdə heç bir dəyişiklik yoxdur. Rauf bəyə gəlincə isə bildirim ki, onda yalnız bir maddə var. İqtisadi cinayət maddələri irəli sürülməyib. İstintaqında hər hansı bir yenilik yoxdur".

**Vəkil dövlətə xəyanət maddəsi üzrə istintaqın dayandırılmasının qeyri-mümkün olduğunu söylədi:** "Bu ittiham üzrə hazırda həbsdə olan məhbuslar barəsində istintaq dayandırıla bilməz. İşə ya xitam verilir, ya da məhkəməyə göndərilir. Burada müsbət heç bir amil yoxdur. İrəli sürülən ağır maddələrin hamısı cinayət işində qalıb. Sadəcə, maddələrin bəziləri üzrə istintaqı başa çatdırıb, məhkəməyə göndərirlər, digər maddə üzrə isə istintaq hələ davam edir. Burada yüngülləşdirici nə hal ola bilər? A və B-nin yerini dəyişməklə, nəticə olduğu kimi qalır. Əslində bu maddələrin hamısının eyni vaxtda istintaqı bitməli və məhkəməyə göndərilməli idi. Amma bunlar tamam ayrıblar. Nəticə etibarı ilə heç nə dəyişmir. Hər hansı bir müsbət işdən söhbət gedə bilməz. Bunları hakimiyyətin yumşalması kimi qələmə vermək çox çətindir. Çünki biz hələ qərarı almamışıq. Hansı əsaslarla belə addım atmalarını bilmirik. Əsasları bizə məlum olsa, fikir söyləyə bilərəm".

**Vəkil dövlətə xəyanət maddəsinin digər maddələrə tövsif olunmasının mümkünlüyündən də söz açdı:** "274-cü maddə çox ağır bir maddədir. Biz həmişə demişik ki, Rauf Mirqədirovun dövlətə xəyanət etməsi sübuta yetirilməyib. Belə bir şey ümumiyyətlə yoxdur. İstintaq da bu qənaətə gəlsə, maddə üzrə xitam verə bilər. Bu, normal bir şeydir. Başqa bir maddə ilə əvəzləmək mümkündür. İstintaq müəyyən edir ki, təqsirləndirilən şəxsin günahı var, ya yoxdur. Təqsiri məlum olanda, o zaman məhkəməyə göndərilir. Təqsir sübut olunmayanda isə işə xitam verilir. Əgər başqa cinayət əməli yoxdusa, həmin şəxs azadlığa buraxılır".

❑ **Cavanşir ABBASLI**

# "AŞ PA işğalçı Ermənistana stimul vermiş oldu"

## Qurumun Azərbaycanla bağlı qətnaməsindən "işğal" sözünün çıxarılması qalmaqal yaradacaq...

**Xəbər verildiyi kimi, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yay sessiyasında ölkəmizlə bağlı qəbul edilən qətnamə layihəsindən "Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və digər 7 rayon" ifadəsi çıxarılıb.**



Əfsus ki, erməni deyən oldu. Azərbaycan üçün, Dağlıq Qarabağdan ötrü mühüm, prinsipial olan bu ifadə erməni nümayəndə heyəti və onun AŞ PA-dakı havadarları sayəsində kiçik səs üstünlüyü ilə qətnamə layihəsindən çıxardılaraq, abstrakt "Dağlıq Qarabağ münaqişəsinin nəticələri" cümləsi ilə əvəzlənib.

Gözlənildiyi kimi, Azərbaycan tərəfini daha zəif durumda göstərmək üçün həmin cümlənin əleyhdarları *(erməni deputatlar və onların qurumdakı dostları)* müzakirələr zamanı vurğunu məhz ölkəmizdə insan haqlarının və demokratiyanın durumuna, çoxsaylı siyasi dustaqların mövcudluğu üzərinə saldılar və nəticədə istəklərinə nail oldular. Halbuki məntiqlə təməl insan haqlarının, demokratiyanın durumu bir ölkənin başqa ölkənin ərazisini işğal etməsinə heç bir əsas və haqq vermir.

Bəs necə oldu, cəmi bir neçə il öncə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi barədə ayrıca qətnamə qəbul edən AŞ PA indi öz mövqeyinə saygısızlıq edərək, əslində isə prinsipsizlik göstərək, Azərbaycana dair məruzədə bu mövqeyin təzahürü olan ifadəni saxlamağa gücü çatmadı? Azərbaycana qarşı bu addımın hansı nəticələri ola bilər?

**Politoloq Qabil Hüseynli AŞ PA-nın bu addımının beynəlxalq hüquqa zidd, işğalı görməzlikdən gəlmək, işğalçıya işğalını davam etdirməsi üçün stimul vermək olduğunu bildirdi:** "AŞ PA-nın bu addımı nə siyasi, nə hüquqi yorumlanması mümkün olmayan rüsvayçı bir addımdır. AŞ PA bu hərəkəti ilə Azərbaycan ictimaiyyətində olan-qalan etimadını da itirmiş oldu. Necə ola bilər ki, G7 dövlətləri 15 gün bundan əvvəl toplanıb ərazi bütövlüyü prinsipini ön plana çəkir, indi AŞ PA işğal sözünü sənədindən çıxarır? Bu, açıq-aşkar göstərir ki, AŞ PA-da erməni lobbisinin təsiri var. Azərbaycana qarşı olan bu davranış da həmin lobbinin təsiri ilə baş verib. Bir səbəb isə məncə, Almaniya ilə münasibətlərin pisləşməsi ilə bağlıdır. Oradakı müəyyən qruplar var ki, Almaniyanın təsiri altındadır".

**Politoloqun fikrincə, AŞ PA-nın sözügedən hərəkəti ciddi qalmaqala çevriləcək:** "Azərbaycan təcili surətdə AŞ PA-ya nota göndərməli və qətnaməyə işğal sözünün daxil olunmasını tələb etməlidir. Əks təqdirdə, bu məsələ BMT müstəvisinə çıxarılmalıdır. Yəni bizim şikayət etmək üçün kifayət qədər yerlərimiz var. Şikayət edib o sənədi ləğv etdirmək olar".

**Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini, administrasiyanın Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov isə özünün twitter səhifəsində məsələyə münasibət yazıb. N.Məmmədov qeyd edib ki, Avropa İttifaqının bəzi strukturları ilə birlikdə AŞ PA da nümayiş etdirir ki, onlar üçün beynəlxalq hüquq heç bir əhəmiyyət kəsb etmir. "Biz necə istəyirik, o da olmalıdır" prinsipi əsasdır:** "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu qurumların mövqeyi bunu açıq-aydın göstərir. İkili standartın digər nümunəsi də budur. Təəssüflər olsun ki, Avropada bu siyasətin hara apardığını və nə ilə nəticələnə biləcəyini hələ anlaya bilmirlər. Avropa Şurasının belə mövqeyi Azərbaycanın bu təşkilatda qalmasını sual altında qoyur".

❑ **Etibar SEYİDAĞA**

# "Ermənistanda baş verənlər cinayətkar və antixalq rejiminə qarşı xalqın üsyanıdır"

## Əli Həsənov: "Azərbaycanda konkret cinayət əməli törətmiş hansısa şəxsin həbsini Dövlət Departamenti səviyyəsində tənqid edən ABŞ hökuməti Ermənistandakı hadisələrə bu ölkədəki səfirliyi vasitəsilə münasibət bildirdi"

**"Ermənistandakı kütləvi aksiyalar cinayətkar və antixalq Serj Sarkisyan rejiminə, bu hakimiyyətin dövründə sosial problemlərin milli fəlakət səviyyəsinə yüksəlməsinə, korrupsiya və rüşvətxorluğun dövlət siyasətinə çevrilməsinə, antidemokratik üsul-idarəçiliyə, insanların haqq səsinin boğulmasına və onların kütləvi şəkildə ölkəni tərk etməsinə qarşı erməni xalqının üsyanıdır". (palitranews.az)**


Əli Həsənov

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** Ermənistanda iyunun 20-dən başlayan etiraz aksiyaları ilə bağlı sualı cavablandırarkən belə deyib. Əli Həsənov qeyd edib ki, etiraz aksiyasının hakimiyyət qüvvələri tərəfindən sərt şəkildə və xüsusi amansızlıqla dağıdılması bu ölkədə antidemokratik durumun əyani göstəricisidir: "Yüzlərlə insan döyülmüş, onlara fiziki xəsarət yetirilmiş, zorakılıq tətbiq olunmuşdur. Aksiyanın dağıdılması üçün xüsusi texniki vasitələrdən geniş istifadə edilmişdir. Hətta aksiyanı işıqlandıran jurnalistlər, həmçinin hüquq müdafiəçiləri polis və xüsusi xidmət orqanları əməkdaşlarının zorakılığına məruz qalmış və həbs olunmuşlar. Ermənistan hakimiyyəti xalqın qəzəbindən qorxaraq ən qəddar vasitələrə əl atmışdır". **Prezidentin köməkçisi bildirib ki, adətən Azərbaycanda kiçik bir hadisəni şişirdərək rəsmi strukturlar səviyyəsində münasibət bildirən Qərb dairələrinin susqunluğu təəccüb doğurmaya bilməz. Əli Həsənov deyib:** "Azərbaycanda hansısa kiçik bir məsələyə ABŞ Dövlət Departamenti, Avropa Parlamenti, Avropa Şurası, ATƏT, ayrı-ayrı Avropa dövlətlərinin rəsmi qurumları səviyyəsində münasibət bildirən Qərbin Ermənistanda baş verən ciddi qanun pozuntularına, vətəndaşlara, KİV nümayəndələrinə, hüquq müdafiəçilərinə qarşı qəddar davranışa dair davamlı susqunluğu diqqəti cəlb edir. Azərbaycanda konkret cinayət əməli törətmiş hansısa şəxsin həbsini Dövlət Departamenti səviyyəsində tənqid edən ABŞ hökuməti Ermənistandakı hadisələrə bu ölkədəki səfirliyi vasitəsilə münasibət bildirdi. Münasibətin özü də daha çox beynəlxalq ictimaiyyətin diqqətini məsələnin mahiyyətindən yayındırmaq cəhdindən başqa bir şey deyildi. Həmin gün AŞ PA-nın plenar sessiyasında Azərbaycanı tənqid edən bəzi avroparlamentarilər özlərini elə apardılar ki, sanki Ermənistanda heç bir hadisə baş vermir. Qərb mediası məsələni səthi işıqlandırmaqla kifayətləndi, beynəlxalq QHT-lər isə ümumiyyətlə bu hadisəyə toxunmadılar. Azərbaycana qarşı qərəzli münasibəti ilə seçilən "Freedom House" təşkilatı Ermənistanda aksiyaçılara divan tutulduğu gün hesabat yayaraq, bu ölkəni az qala "demokratiya nümunəsi" kimi təqdim etdi. Bütün bunlar Qərbin ikili standartlar, ayrı-seçkilik siyasətinin göstəricisidir. Bir ölkəyə qarşı planlı şəkildə, davamlı olaraq qarayaxma kampaniyası təşkil olunduğu halda, digər qonşu ölkədə etiraz aksiyasının amansız şəkildə dağıdılmasına, insan haqlarının tapdanmasına göz yumulması başqa cür adlandırıla bilməz".

# Deputat təhqiramiz karikaturaya sərt cavab verdi

## Fəzail Ağamalı: "Paltarınızla içalatınızı örtün"

**AzadlıqRadiosunun Azərbaycan xidməti saytında Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı ilə bağlı karikatura yerləşdirib. Buna səbəb kimi, deputatın radio ilə əməkdaşlıqdan imtina etməsi göstərilib. "AzadlıqRadiosu üçün böyük itki" sərlövhəli karikaturada ironiyalı şəkildə F.Ağamalının yerinə şərhçi axtarılır elanı verilib.**

"Yeni Müsavat"a açıqlamasında **F.Ağamalı** ilk olaraq, AzadlıqRadiosu ilə əməkdaşlıqdan imtina etməsinin səbəblərinə aydınlıq gətirdi: "Son vaxtlar dövlətimizə qarşı "qara piar" kampaniyalarında AzadlıqRadiosunun fəal iştirak etməsi, Azərbaycana qarşı təhdidlərə xüsusi yer verməsi, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun zəifləndilməsi üçün səylə çalışması bir vətəndaş olaraq məni narahat etdi. Buna görə də mənə sual ünvanlananda bunları əsas gətirərək bildirdim ki, sizinlə əməkdaşlığa xitam verirəm. Xahiş etdim ki, bunu Azərbaycana olan sevgim kimi qəbul edin. Etik qaydalara əməl edərək, söyləmiş olduğum bu fikirlər hüququmdur. İstənilən mətbuatla əməkdaşlıq etmək, suallara cavab verib-verməmək vətəndaş kimi hüququmdur. Əgər insan haqlarına, demokratik prinsiplərə, söz azadlığına söykənərək Qərbin anti-Azərbaycan siyasətinə xidmət edən AzadlıqRadiosunun bütün dəyərlərin üstündən xətt çəkərək, məni karikaturanın axtarış yerində təhlükəli şəxs kimi təqdim etməsi sübut edir ki, bu radio heç bir demokratik dəyərlərə əsaslanmayan, bolşevik təfəkküründə olan bir radiodur. Bunlar bir daha sübut edir ki, Azərbaycanın əldə etmiş istiqlalına, dövlətçiliyinə xidmət edən şəxsləri bu şəkildə qaralamağa çalışırlar. Bütün bunlar AzadlıqRadiosunun bütün anatomiyasını ortaya qoydu. Çox təəssüf edirəm ki, bunlara bəzi şəxslər də dəstək verdilər. Onlar da bu fikirdə olan düşüncə sahibləridir. Onların da insan haqlarına zərrə qədər hörməti yoxdur. Çünki hər bir insanın seçim hüququ var. Bu seçim hüququnu mən də daşıyıram".


Fəzail Ağamalı

**Deputat AzadlıqRadiosunun onunla bağlı fəaliyyətini davam etdirəcəyi təqdirdə atacağı addımlardan da danışdı:** "Gələcəkdə bu cür fəaliyyətləri davam edərsə, mənimlə bağlı hədlərini aşarlarsa, müəyyən etik qaydaları pozarlarsa, tərəfimdən ciddi reaksiya olacaq. Buna onların qətiyyən şübhəsi olmasın. İstəmirəm ki, hazırda hər hansı bir addım atıb, onların avantürist siyasətlərinin içərisində olum. Hələ ki tələsmirəm. Sonunu gözləyirəm. Əgər davam etsələr, şəxsiyyətimə, ləyaqətimə toxuna biləcək təhqiramiz xətt davam edəcəksə, onlarla münasibətlərimi məhkəmə müstəvisində aydınlaşdıracam".

**F.Ağamalı AzadlıqRadiosuna müraciət etdi:** "Sizin qəzetiniz vasitəsilə onlara müraciət edirəm ki, bu cür yanaşmalarla içalatınızı çölə qoymayın. Heç olmasa, paltarınızla içalatınızı örtün ki, insanların sizin haqqınızdakı düşüncələri bir az açıq olsun. Əgər siz bu cür davranışlarla soyunub özünüzü çölə qoyacaqsınızsa, sizin bütün eybəcərliyiniz açığa çıxacaq. O eybəcərliyin isə əziyyətini çəkəcəksiniz. Mənə qarşı gələn hücumlara təmkinlə yanaşıram. Lakin buna cavab verəcəyimi özümdə daşıyacaq iradəyə sahib insanam. Onlar mütləq bunu bilməlidir".

**Partiya sədri gələcəkdə radio ilə əməkdaşlığın mümkünlüyü barədə də danışdı:** "Əgər AzadlıqRadiosu Azərbaycana qarşı olan indiki yanaşmasından imtina edərsə, dövlətimizə qarşı qarayaxmalarda iştirak etməzsə, çatışmayan cəhətlərimizi obyektiv şəkildə göstərərsə, əməkdaşlıq edərəm. Amma indiki halda əməkdaşlıq etməyi özümə rəva bilmirəm. Çünki o, dövlətimin və xalqımın üzərinə gəlir. Azərbaycanı təfəkkürlərində olan eybəcər şəkildə dünyaya təqdim etməyə çalışırlar. Bunların xəstə təxəyyüllərində Azərbaycan fərqli durumdadır. Azərbaycan bir neçə gündən sonra 17 gün olacaq Avropa Oyunlarına dünyanın 49 ölkəsini gətirdi. Azərbaycan dünyəvi, güclü bir dövlət kimi təqdim edildi. Qədim tarixə, mədəniyyətə malik bir xalq kimi dünyaya nümayiş etdirildi. Niyə AzadlıqRadiosu bunları yazmır? Qulaqları kar, gözləri kordur? Əgər qulaqları kar, gözləri kordursa, Azərbaycana qara eynəklə baxırlarsa, mən heç zaman belə mətbuat orqanının yanında olmamışam, bundan sonra da olmaq niyyətində deyiləm. Sonda bir daha bəyan edirəm ki, əgər Azərbaycanı olduğu kimi dünyaya çatdırmaq cəsarətləri olarsa, "ağalar"ın tapşırığından imtina edib, Azərbaycan həqiqətlərini dünyaya çatdırarlarsa, tamamilə əməkdaşlıq mümkündür".

❑ **Cavanşir ABBASLI**

# "Haykırtı bəy"in nökəri olmaq "şərəfi"



**Elşad MƏMMƏDLİ**
elshad1978@mail.ru

## Yaxud qovulmuş səfirin "siyasi rəhmətliklər"ə inanmaq hayqırtısı

**Onun konkret ayamasını aylar öncə vermişdik; "Haykırtı bəy". Türkiyədə siyasət əvəzinə əllaməliklə məşğul olan, medianın "qələm ucunda" oynatdığı, məzələnib çığırtdığı, əsəb xəstəsinə çevirdiyi və bütün günü boşboğazlıq edən birilərinə belə deyirlər. Əli Kərimli bu ayamanı daşımağı tam haqq edir. Cənab "Haykırtı bəy" öz səviyyəsində, əxlaqında olan birilərini də ətrafına siyasi mübarizə üçün yox, mütəşəkkil şarlatanlıq etmək üçün toplayıb. Milli Şura adı altında nəzarətində saxladığı debil yığınının iş-gücü ancaq "Yeni Müsavat" qəzetini, onun kollektivini, rəhbərliyini şərləməkdən ibarətdir. Əlbəttə, layiqli cavablarını alırlar və alacaqlar...**

Görünən budur ki, tam siyasi iflas yaşayan "Haykırtı bəy" mövcudluğunu qorumaq üçün ən yaramaz işlərə baş vurur, şər atır, atdırır, ətrafındakıları da şantaj edərək üstümüzə qısnadır. Onun böyür-başında olan-qalanlara diqqət edin; hamısı siyasi və şəxsi reputasiyaları ləkəli adamlardır. Əlbəttə, Əli Kərimlinin ətrafında sağlam mövqeyi, normal təfəkkürü olan adam qala bilməz. Hətta nə zamansa normal olan biri Əlinin yanında cəmi ikicə ay qalsa, onun zir-zibilinə mütləq bulaşacaq, üfunət qoxusunu özünə hopduracaq, beyni zəhərlənəcək. "zombi"ləşəcək...

Biriləri deyir ki, Cəmil Həsənli ağsaqqal adamdır, niyə onu aşağılayırsan-falan. Əzizlərim, bu adam barəsində söylənilənlərə haqq edir. Bir onun facebook statuslarında, Əli Kərimlinin divar qəzetində, korrupsiya yuvasına çevirdiyi "Azadlıq"da "Yeni Müsavat"ın zəhmətkeş kollektivi haqda yazdıqlarına baxın. Ziqzaqvari, xəyanətkar, qaranlıq, bəzən yaltaqlıqla dolu siyasi həyat yolu olan birisi bizi "rejimin əlatısı", "nökəri" kimi özünün layiq olduğu ifadələrlə təhqir edir. Hansı ki, "Yeni Müsavat" hazırda müstəqilliyini qoruyan, öz üzərində özü qərar verən, kursunu yalnız özü müəyyənləşdirən, dünyada gedən inkişaf tendensiyasından geri qalmayan, divar qəzetinə çevrilməyən tək institutdur. Cəmil Həsənlinin ona nökər olmaqdan şərəf duyduğu Əli Kərimli isə noxtasını bu 20 ildə gah iqtidarın əlinə verib, gah yankilərin, son olaraq isə Kremlin - Milli Şura nümunəsində...

Adamlar şəxsi maraqları üçün hətta erməniləri də düşmən hesab etmirlər. Milli Şuranın sədri Rüstəm İbrahimbəyovun "ermənilərlə düşmən deyilik", "Krım rus torpağıdır" açıqlamalarına tarixçi Cəmil Həsənlinin haqq qazandırması boyunduruqda olmalarının bariz nümunəsidir. Faktiki olaraq qaranlıq xarici güclərin əlaltısı olan bu zatıqırıqlar "adımı sənə qoyum, səni də yana-yana" prinsipi ilə davranmaq istəyirlər. Amma anlamırlar ki, başlarını kola soxsalar da, quyruqları görünür, çox pis yerdə axşamlayıblar...

Əli Kərimlinin debil yığıncağına daha biri cəlb olunmaqdadır; keçmiş diplomat Arif Məmmədov. Bu adam İslam Əməkdaşlıq Təşkilatının Avropa Birliyi yanında səfiri postundan iki həftə əvvəl qovulub. Amma "Haykırtı bəy" onu yenə də öz divar qəzetində səfir kimi təqdim edir. Keçmiş səfir də "maşallah", tam bunlar ağılda imiş. Əlbəttə, düz deyiblər, su axar, çuxurunu tapar. Azərbaycana "xoşbəxt gələcək" vəd edən birisinin təfəkkürünə fikir verin; zərgər qədər sərraf olan Azərbaycan xalqına "siyasi rəhmətliklərə" - Cəmil Həsənliyə, Əli Kərimliyə, Vidadi Mirkamala, Gültəkin Hacıbəyliyə inanmağı tövsiyə edib. Sənə diplomat deyənə nə deyim mən. Ay kişi, onlar siyasi ölüdürlər e, çoxdan dəfn ediliblər. Sən, sadəcə, indi "qəbiristanlıq mələyi" kimi peyda olmusan; siyasi arenada doğulmamış rəhmətə getdin; "mələk" kimi.

Sadəcə, bir az pulun var, Əli Kərimli dartıb əlindən almaq istəyir. İnanmırsan? Bax, "Haykırtı bəy" artıq divar qəzetində çığır-bağır salıb ki, bəs bağlanırıq, vəziyyətimiz pisdir. Yəni Arif, təcili pul yolla, yoxsa qəzet dayanar, səni xalqa "lider" kimi soxuşdura bilmərik...

Kefiniz olsun...



# Atıcılıq problemləri

Zamin HACI
zaminhaci@gmail.com

"Mən ki səni sevirəm
Bakıdan, Daşkəsəndən
Gələn bir səda kimi,
Səs kimi,
Qüdrət kimi
O isə səni sevir,
Gizli deyil ki səndən,
Bir otaq küncündəki qəmli sükunət kimi".
**(Əli Kərim, "İki sevgi")**

**Avropa Oyunlarında bütün medalları süpürüb yığışdırıb aparırıq, bununla da respublikamızda idmana dövlət qayğısı super bir formada isbata yetməkdədir. Məncə, yaxın aylarda hardasa Biləcəri stadionunda "Futbol üzrə Avrasiya çempionatı" qayırmalı, turnirə də Sumqayıt, Dağıstan, Efiopiya komandalarını çağırıb axırda "Neftçi"ni dünya çempionu elan edə bilərik. Necə deyərlər, hər kəs yüz il yaşamasa, günah onun özündədir! Onsuz da dünyanı mağarada oturan masonlar idarə edir. Onsuz da dünya ikili standartlarla doludur. Kim kimədir? Biz, mənə elə gəlir, hətta öz milli BMT idarəmizi də qayıra bilərik. Çox da yekə yox, elə-belə, cumbulu BMT. Sədr də Çingiz Qənizadəni qoymaq olar. Elçibəyin Bakı şəhərinə baş prokuror qoyduğu görkəmli şəxsiyyəti nəzərdə tuturam.**

Ancaq bütün bu idman uğurlarının fonunda bir detal mənim çox pisimə gəldi: atıcılıq yarışlarında, o cümlədən kamandan oxatma üzrə Azərbaycan bir taxta medal da qazana bilmədi. Tüfəng, tapança, nə bilim, səngərdə stend atıcılığı növləri üzrə tutalım bir şey əlimizdən gəlmədi, heç olmazsa bir ox atan da yoxdur. Bəs biz sabah Qarabağı təzədən nə cür alacağıq? Ayıb oldu. Mən atıcılıq yarışlarına bir alababat idmançı yetişdirə bilməyən gənclər, idman, turnik nazirini, təhsil nazirini, müdafiə nazirini və sairə məsul şəxsləri şiddətlə qınayıram! "Sədərək" talkuçkasına *(məncə, saxta, əraziyə heç yaraşmayan "yarmarka" sözünü çoxdan bu cür gözəl "talkuçka" sözü ilə əvəz etməliyik - Z.H.)* gedən yolun üstündə bir hədəfi vura bilməyən millət dağlıq-meşəlik cəbhə xəttində düşməni necə vuracaqdır? Fikrimcə, bu haqda düşünməyə dəyər. Ən dəhşətlisi odur ki, bir-birinə atmaq üzrə çoxlu mahir insanların yaşadığı dövlətdə atıcılıq yarışına çıxarmağa adam yoxdur. Ürək ağrısı ilə yazdım bu sətirləri...

Başqa milli bir problem də var. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası bu il orta məktəbi bitirənlərin ana dili və riyaziyyat fənlərindən imtahan qiymətlərini açıqlamışdır, nəticələr çox acınacaqlıdır. Məlum olub şagirdlərin yarıya qədəri ana dilini bilmir, misal üçün, "mən acmışam" sözlərini "bombarbiya kerqudu" şəklində yazır. İki dəfə ikinin üçə bərabər olmasını düşünür. Həmin imtahanlarda ən çox "2" alan rayonların çempionu Sabirabaddır. Hardasa 50 faizə yaxın iki alan var. Bu da Mirzə Ələkbərin adına hörmətimizin ifadəsidir. Gorun çatlasın, ey "oxutmuram, əl çəkin" yazan kişi, necə ki, gedib-gələnlər deyir bir ara gerçəkdən çatlayıbmış!

Bir tragikomik detalı da yazım: mayın axırında təzə təhsil naziri Mikayıl müəllim "Son zəng" tədbirini məhz Sabirabad məktəbliləri ilə keçirmişdi. Görünür, təhsilə son zəngi çalmağın yerini öncədən bilirmiş.

Ən çox "iki" alan rayonlardan ikincisi Daşkəsəndir, orda da icra hakimi Əhəd Abıyevdir. Əhəd müəllim də görünür ki, təhsil sahəsinə böyük diqqət ayırıbdır. Prinsipcə, hər kənd məktəbində iki cüt bir tək şagird oxuyan, sinif otaqlarında qoyun-quzu yatan Daşkəsən təhsili üçün hələ uğurdur. Sabirabaddan pis oxumurlar ki?

Nəhayət, pis oxuyanlarımızın üçüncüsü, aktual dildə desək, bürünc mükafatçısı Ağcabədi rayonudur. Bu da Daşkəsən kimi cəbhə xəttindədir. Ağcabədidə bir ara cənab prezident doğum günlərini qeyd edirdi, ola bilər məktəblilərin başı tort yeməyə qarışıb, dərsi yaxşı oxumayıblar. Hər halda, o biri rayonlara nisbətdə üzürlü səbəbdir. Arzu edək Ağcabədi daha zirvələrə yüksəlsin, gələn il birinci yeri tutsun, himnimizi oxusun, bayrağımızı qaldırsın!

Yazını elə bu xoş ovqatla bitirirəm.

**Türkiyə və İsrail arasında əlaqələrin normallaşdırılması üçün görüşlər başlayıb. Bu açıqlama ilə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxış edib (axar.az). Onun sözlərinə görə, İsraillə Türkiyənin görüşlərində yeni heç nə yoxdur.**



# Türkiyənin İsraillə gizli danışıq apardığı təsdiqləndi

## Ankara-Təl-Əviv münasibətlərinin normallaşmasını vacib edən səbəblər sırasında Azərbaycan amili də var; "üçlü ittifaq"a indi heç vaxt olmadığı qədər zərurət yaranıb...

Nazir tərəflər arasında münasibətlərin qaydaya salınması üçün görüşlərin intensivləşməsinin vacibliyini də bildirib.

Qeyd edək ki, bir neçə gün öncə İsrailin "Haretz" qəzeti Türkiyə və İsrail diplomatlarının gizli şəkildə Romada görüşdüyü haqqında informasiya yaymışdı. Xəbərdə deyilirdi ki, iyunun 22-də Romada israilli və türkiyəli diplomatların iki ölkə arasında münaqişənin aradan qaldırılması cəhdlərinə həsr olunmuş məxfi görüşü keçirilib. Söhbət bir ildən çox müddətdən sonra ilk belə görüşdən gedir.

"İsrail XİN-in baş direktoru, baş nazir Binyamin Netaniyaqunun etibarlı şəxslərindən biri olan Dori Qold Romaya gedib, Türkiyəni isə "İsrail məsələsinin kuratoru", xarici işlər nazirinin birinci müavini Firudin Sinirlioğlu təmsil edib" - qəzet yazmışdı.

Yada salaq ki, Türkiyə-İsrail münasibətləri 2010-cu ildə Türkiyənin "Mavi Marmara" gəmisinin Qəzza bölgəsində dəniz blokadasını yarmağa çalışmasından sonra kəskin münaqişə formasına keçib. Gəmi ələ keçirilərkən İsrail xüsusi təyinatlıları 9 Türkiyə vətəndaşını öldürüb. Gəminin daha 30 sərnişini və 10 İsrail hərbiçisi yaralanıb.

2013-cü ildə İsrail Amerika rəhbərliyinin israrı ilə bu hadisəyə görə üzr istəyib. Amma Türkiyə tərəfi həlak olanların ailələrinə təzminat ödənilməsində israr edir. İndiyədək İsrail müəyyən "aralıq" varianta: həlak olan türklərin qohumlarına maliyyə dəstəyi üçün humanitar fond yaradılmasına razılıq ifadə edirdi. İsrail həmçinin "Mavi Marmara" gəmisindəki hadisəyə görə İsrail vətəndaşlarının məhkəmə təqibinə xitam verilməsinə çalışırdı.

***

Bütün hallarda bölgənin iki nüfuzlu dövləti arasında münasibətlərin normal məcraya salınması yönündə fəal təmaslara keçilməsi şübhəsiz ki, müsbət gəlişmə kimi qiymətləndirilməlidir. Çünki İsrail-Türkiyə əlaqələrinin əvvəlki məcraya qayıdışı təkcə bu iki dövlətin deyil, onlarla strateji münasibətlərdə olan Azərbaycanın da maraqlarına uyğundur və eyni zamanda bölgədə baş qaldıran yeni hədələrə qarşı güclü immunitetin yaranması baxımından önəmlidir. Dağlıq Qarabağ probleminin ədalətli həlli, Ermənistanın Türkiyəyə qarşı uydurma soyqırım, torpaq və təzminat iddialarının daha effektli önlənməsi imperativi əlaqələri normallaşdırmağın başqa bir vacib əhəmiyyəti kimi vurğulana bilər.

Yeri gəlmişkən, ötən 5 ildə Ankara-Təl-Əviv soyuqluğundan ən çox Ermənistan və erməni lobbisi yararlanmağa çalışıb. Lakin İsrail özünü "soyqırım" oyununda yandırmadı, Türkiyə ilə isti münasibətlərin olmamasına rəğmən, saxta genosidin 100 illik törəninə İrəvana aşağı çinli bir nümayəndə heyəti göndərdi. Ardınca ozamankı xarici işlər naziri Avidqor Liberman, necə deyərlər, nöqtəni qoydu: nazir açıq mətnlə bəyan elədi ki, tarixdə "erməni genosidi" deyilən bir şey olmayıb.

Rusiya prezidenti Vladimir Putinin İrəvan səfəri fonunda bu açıqlama və gedişlər əlbəttə ki, Təl-Əvivin Ankaraya ünvanlı çox ciddi jesti, reveransı idi və qardaş ölkə bunu dəyərləndirməyə bilməz. Sözsüz ki, İsrailin Türkiyəyə yaxınlaşmasını zəruri edən səbəblər sırasında Azərbaycan amili, daha doğrusu, Bakı-Təl-Əviv əlaqələrinin kifayət qədər yüksək olması reallığı da var. Bu yerdə xatırladaq ki, İsrail Bakı-Ceyhan neftinin alıcılarındandır.

Üç ölkənin daha sıx əlaqələr qurması onların hər üçünün strateji marağındadır. Söhbət həm də İŞİD təhlükəsindən, İran və Suriya *(Bəşər Əsəd)* məsələlərində ortaq baxışlardan gedir. Bəllidir ki, Rusiya və İran Suriya məsələsində diametral əks mövqedədirlər. Bu yaxınlarda Moskvanın Tehrana vaxtilə vəd elədiyi S-300 zenit-raket komplekslərini verməyə başlaması da heç şübhəsiz, İsraildə məmnunluq yaratmayıb.

Bundan əlavə, İranın nüvə silahına can atması İsraillə yanaşı, Türkiyə və Azərbaycanın da köklü maraqlarına toxunur. Bura Tehranın Rusiyanın Güney Qafqazda müttəfiqi olan işğalçı Ermənistanla sıx əlaqələrinin olması faktını da əlavə eləsək, qənaət hasil olar ki, İsrail-Türkiyə diplomatik əlaqələrinin tam həcmdə, 2010-cu ilədək olan səviyyədə bərpasını, "üçlü ittifaq"ın yaranmasını ən əvvəl məhz bölgədəki mürəkkəb geosiyasi situasiya diktə edir. Türkiyədəki son parlament seçkilərindən sonra yaranan durum bu ittifaqı xüsusilə zəruri edir.

❑ **Siyasət şöbəsi**

# AŞ PA Azərbaycan üzrə yeni həmməruzəçi təyin etdi

**İyunun 25-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyası çərçivəsində qurumun Monitorinq Komitəsinin toplantısı keçirilib.**



Pedro Aqramunt

APA-nın xəbərinə görə, komitənin iclasında Azərbaycanın vəzifə və öhdəliklərinin yerinə yetirilməsi üzrə yeni həmməruzəçi seçilib. İspaniyalı parlamentar Aqustin Konde bu vəzifədə digər ispaniyalı həmkarı Pedro Aqramuntu əvəzləyəcək və 5 il müddətinə həmməruzəçi səlahiyyətlərini icra edəcək.

Qeyd edək ki, Aqustin Konde də Pedro Aqramunt kimi AŞPA-da Avropa Xalq Partiyası qrupunu təmsil edir və bu vəzifəyə AXP-nin iclasında qrup tərəfindən vahid namizəd kimi irəli sürülüb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Azərbaycan üzrə yeni həmməruzəçinin təyinatına münasibət bildirib.

APA-nın Avropa bürosunun xəbərinə görə, S. Seyidov yeni həmməruzəçinin Azərbaycanla bağlı obyektiv mövqedə olmasını arzu etdiklərini söyləyib:

"Cənab Pedro Aqramuntun Azərbaycan üzrə həmməruzəçi kimi səlahiyyətləri başa çatdı. Monitorinq Komitəsi bu vəzifəyə cənab Aqustin Kondeni təyin etdi. Biz istəyərdik ki, yeni məruzəçi Azərbaycanla bağlı obyektiv mövqedə olsun. O, hələ yeni təyin edilib və hansısa addımların atılması təbii ki, Monitorinq Komitəsinin işidir. Aqustin Konde AŞ PA-da fəaliyyət göstərir, elə bir yaxınlığımız yoxdur, kəskin mövqeyi ilə fərqlənir".

A. Kondenin Azərbaycandakı vəziyyəti öyrənmək üçün yaxın gələcəkdə ölkəyə səfər etməsinin mümkünlüyünə toxunan S. Seyidov hələlik gündəlikdə belə bir məsələnin olmadığını deyib.

# Azərbaycan Avropa Şurasından çıxa bilər

**Aİ-nin (Avropa İttifaqı - red.) bəzi strukturları ilə birlikdə AŞ PA da nümayiş etdirir ki, onlar üçün beynəlxalq hüquq heç bir əhəmiyyət kəsb etmir, "biz necə istəyirik o da olmalıdır" prinsipi əsasdır.**



Novruz Məmmədov

Virtualaz.org bildirir ki, bunu Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini, administrasiyanın Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov özünün twitter səhifəsində yazıb.

"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu qurumların mövqeyi bunu açıq-aydın göstərir. İkili standartın digər nümunəsi də budur. Təəssüflər olsun ki, Avropada bu siyasətin hara apardığını və nə ilə nəticələnə biləcəyini hələ anlaya bilmirlər. Avropa Şurasının belə bir mövqeyi Azərbaycanın bu təşkilatda qalmasını sual altında qoyur", - o qeyd edib.

YENİ MÜSAVAT
N 138 (6166) 26 iyun 2015

**Azərbaycanla Ukrayna arasında uzun illər mövcud olan isti münasibətlərdə son vaxtlar bir soyuqlaşma müşahidə olunmaqdadır. Bir çox ekspertlərin fikrincə, Azərbaycanın son vaxtlar Rusiya ilə yaxınlaşması Ukraynanı narazı salır. Bir sıra ekspertlər isə hesab edir ki, Azərbaycanın Avropa Birliyi ilə münasibətlərinin soyuqluğu Ukrayna ilə münasibətlərə təsirini göstərir.**


Pyotr Poroşenko

# Ukrayna-Azərbaycan münasibətləri və Poroşenkonun iki səhvi...

## **Elxan Şahinoğlu:** “Ukrayna hakimiyyətinin başı indi qarışıb Avropa və Amerika istiqamətinə, digər istiqamətlər yaddan çıxıb”

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, Ukrayna hakimiyyəti son vaxtlar bütün diqqətini Amerikaya və Avropa Birliyinə yönəltdiyindən digər mühüm istiqamətləri yaddan çıxarıb:** “Əslində Ukrayna prezidenti Pyotr Poroşenko müəyyən fürsətləri əlindən qaçırdı. Birinci fürsət o idi ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 24 apreldə Çanaqqala zəfəri münasibətilə təşkil edilən mərasimə onu da dəvət etmişdi, lakin Poroşenko həmin mərasimə qatılmadı. Halbuki Ukrayna prezidenti bu dəvətdən istifadə etsəydi, xeyli xal qazana bilərdi. Çünki həmin gün Rusiya prezidenti Vladimir Putin İrəvana getdi. Bununla da Türkiyənin prezidentinin, siyasi dairələrinin, ictimaiyyətinin qınağına səbəb oldu. Həmin vaxtda Poroşenko Çanaqqalada olsaydı, bu, həm Türkiyə prezidentinin, həm siyasi dairələrin, həm də ictimaiyyətin daha çox dəstəyini qazanmış olardı. Amma Poroşenko bu fürsətdən istifadə etmədi. İkinci fürsət Bakıda idi. Bunu da Poroşenko əldən verdi. Azərbaycanda keçirilən Avropa Oyunlarının açılışına gəlmədi. Bəzən ukraynalı həmkarlarımla söhbət edəndə mənə arqument gətirirlər ki, Rusiya prezidenti orada olduğu üçün Poroşenko gələ bilməzdi. Amma mən bu arqumenti qəbul etmirəm. Çünki Rusiyanın Gürcüstanla da münasibətləri yoxdur. Ancaq Gürcüstanın baş naziri Bakıya gəlmişdi və oyunların açılış mərasimində iştirak etdi və Putinlə heç salamlaşmadı. Yəni öz mövqeyindən çıxış etdi. Poroşenko da gəlib həmin tədbirdə iştirak etsəydi, Azərbaycanla münasibətlərə bu ancaq müsbət təsir edə bilərdi. Maraqlı fakt ondan ibarət idi ki, Avropa Oyunları açılanda Ukrayna millisi üçüncü milli oldu ki, Azərbaycan tamaşaçıları ən çox onlara əl çaldılar. Poroşenko həmin anda stadionda olsaydı bu, Ukrayna-Azərbaycan münasibətlərinə daha çox impuls verə bilərdi”.


Elxan Şahinoğlu

**Siyasi ekspertin sözlərinə görə, bütün bunların qarşılığında Ukraynada Azərbaycanla münasibətlərə kölgə salan açıqlamalar və fikirlər əslində yersizdir:** “Çünki tutaq ki, Azərbaycan BMT-də də birmənalı olaraq Ukraynanın ərazi bütövlüyünə səs verib. Halbuki Ermənistan səs verməyib. Mənə qəribə gəldi ki, mən Ukraynaya dəfələrlə gedəndə Ermənistanın səs verməməsinə münasibət bildirən yox idi. Mən qəzəblənirdim ki, Maydanda Ermənistanla yanaşı gizlincə ”Dağlıq Qarabağ"ın da “bayrağı” dalğalanırdı. Dəfələrlə ukraynalı həmkarlarımın diqqətinə çatdırırdım ki, necə ki siz Donbas separatçılarını qəbul etmirsiniz, Qarabağ separatçılarının onlardan fərqi yoxdur, nədən separatçıların bayrağı Maydanda dalğalanır? Bu da əslində ikili standartdır Ukrayna tərəfindən. Ukraynanın milli və təhlükəsizlik maraqları diktə edir ki, Azərbaycanla strateji tərəfdaşlığı genişləndirsin. Poroşenkonun Azərbaycana səfəri nə qədər tez reallaşsa, bu, bir o qədər ikitərəfli əməkdaşlığa xeyir verə bilər. Mən bir proqnoz da vermişdim ki, Mixail Saakaşvilinin Odessaya qubernator təyin olunması Azərbaycan-Ukrayna əməkdaşlığına bir az təkan verər. Çox təəssüf ki, Ukrayna hakimiyyətinin başı indi qarışıb Avropa və Amerika istiqamətinə, digər istiqamətlər yaddan çıxıb".

**E.Şahinoğlu onu da dedi ki, Ukrayna ilə strateji tərəfdaşlıq Azərbaycan üçün də vacibdir:** “Birincisi, Ukrayna GUAM-da bizim müttəfiqimiz sayılır. İndi əslində GUAM da xeyli zəifləyib. Elə bil GUAM ancaq Azərbaycan-Gürcüstan ittifaqından ibarətdir. Ukrayna Avropaya çıxışdır. Ukraynanın münbit torpağı var, gələcəkdə aqrar, iqtisadi sahədə inkişaf edə bilər və bu perspektivdən biz də yararlana bilərik. Avropaya çıxış imkanı da əldə etmək baxımından bizim üçün Ukrayna vacib ölkədir. Biz bütün istiqamətlərdə əməkdaşlığı inkişaf etdirməliyik. Rusiya-Ukrayna münasibətləri gərgindir deyə, biz Kiyevlə münasibətlərdən qopmalı deyilik. Əksinə, Rusiya da anlamalıdır ki, Azərbaycan bir istiqamətdən asılı deyil. Ona görə də Ukrayna ilə əməkdaşlığın dərinləşdirilməsi vacibdir. Yetər ki, hər iki tərəf addımlar atsın. Önəmli addımı Ukrayna atmalıdır. Yəqin ki, bu, Ukrayna prezidentinin Azərbaycana səfəri ilə baş verəcək. Çox təəssüf ki, iki dövlət arasında hökumətlərarası bir komissiya var idi və bu komissiyanın fəaliyyətini Ukrayna dondurub. Ukraynada hakimiyyət dəyişikliyindən sonra bütün hökumətlərarası komissiyaların fəaliyyətinə xitam verildi. Amma düşünürəm ki, Poroşenkonun səfərindən sonra bu komissiyanın fəaliyyətinə ”yaşıl işıq" yandırılmalıdır. Əməkdaşlıq tellərini tədricən bərpa etmək lazımdır".

❑ **Etibar SEYİDAĞA**

# Qazaxıstan və Türkmənistan Xəzəri böldülər

**Qazaxıstan parlamentinin senatı iyunun 25-də keçirilən iclasında Türkmənistanla Xəzər dənizinin dibinin sərhədlərinin müəyyənləşdirilməsi haqqında razılaşmanı təsdiqləyib. Bu barədə azvision.az “TASS” agentliyinə istinadən xəbər verir.**

İki ölkə arasında Xəzər dənizində sərhədləri müəyyənləşdirən qanun layihəsi imzalanması üçün Qazaxıstan prezidenti Nursultan Nazarbayevə göndəriləcək.

“Razılaşma Xəzər dənizinin dibini Qazaxıstan və Türkmənistan arasında hüdudları müəyyən etməyə imkan verir. Bu qərar tərəflərin Xəzər dənizinin dibində və üzündə təbii resurslardan istifadə, hazırlıq və kəşfiyyat işlərini aparmasına imkan verəcək”, - deyə senatın beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik üzrə komitəsinin yaydığı məlumatda bildirilir.




Razılaşma ötən ilin sonu Türkmənistanın paytaxtı Aşqabadda imzalanıb.

# Bir zülmət gecə...


Hüseynbala SƏLİMOV

**Hava bərk isti idi. Hətta dözülməz dərəcədə isti idi. Şəhərdəydim. Düşündüm ki, bir dəniz sahilinə baş çəkim... Mənim hərdən dənizə şikayətlənməyim var. Sahildə bir azacıq sərin yer tapır və dərdimi-gileyimi dənizə danışıram. Bu şəhərdə bəlkə də hər şey aşınır, hər şey dəyişir, köhnələr təzələnir, yenidən üzlənir, yenidən aşınır və s. və i...**

Amma dəniz olduğu kimi qalır. Bizim bütün məğlubiyyətlərimizin və qələbələrimizin, yüksəlişlərimizin və enişlərimizin şahidi dəniz. Bircə o, qoca dünyada dəyişmir, biz acı siqaret tüstüsünü içimizə çəkdiyimiz kimi, o, da bizim sevincimizi və kədərimizi, acımızı-ağrımızı və pisimizi-yaxşımızı içinə çəkərək yaşayır...

Mənim ona gileyim olur - bu ölkədən və onun vətəndaşlarından, yaxınlardan və uzaqlardan... O, məni sakitcə, beşiyində yırğalana-yırğalana dinləyir...

Xəzər mənə həmişə həm də nisgilli bir dəniz kimi görünüb- ona görə ki, yurdundan-yuvasından, dəniz dostlarından, okeanlardan ayrı düşüb... Bəlkə də hər şey bir qədər başqa cür olub. O, dəniz kimi doğulmaq istəyib, amma göl olub... Necə ki, Yupiter ulduz kimi doğulmaq istəyib, amma planet olub. Necə ki, biz hamımız dünyanın ən xoşbəxtləri kimi doğulmaq istəyirik, amma başqa cür olur...

Bir mahnıda deyilir ki, dəniz bir zülmət gecə qaçar... Mən çox istəyirəm ki, bir gecə Xəzər qaçsın, dənizlərə qoşulsun, okeanlara qovuşsun...

Amma əfsus. O da elə mənim kimidir. Mən də əvvəllər çox qaçmaq istədim bu məmləkətdən. Amma...

İndi dənizlə ikimiz tək qalmışıq... Ona gileyimi danışıram, Avropa Oyunlarından danışıram, buranın istisindən, cəza yerlərinin ağırlığından bəhs etmək istəyirəm. Deyəcəyim o qədər çoxdur ki...

Amma aramızda bir lal sükut hökm sürür. Nə o bu sükutu pozmaq istəyir, nə də mən...

Düşünürük ki, elə-belə də yaxşıdır. Ürəklərin danışdığı yerdə dilin nə işi? Və beləcə bir saat, iki saat keçir... Durub evə tərəf üz tuturam... Axı mən hələ yazı da yazmalıyam...

Yol boyu çox götür-qoy edirəm ki, nədən yazım, necə yazım... Yayın öz üslubu var. Həmişə mənə elə gəlir ki, yayda hamımız-bütün bakılılar bir məhlul oluruq, ora-bura hopuruq...

Qatarda bir-iki xarici vardı... Onlar maraqla ora-bura baxırdılar... Amma heç kim onlara fikir vermirdi...

Nə qədər qəribə olsa da, bu, məni bir az sevindirir - Bakı yenə də şəhərləşir və buranın insanları təzədən şəhərlilərə çevrilirlər...

Əvvəllər belə deyildi. Sanki hamı gözü ilə biri-birini yeyirdi. Amma indi... Bəli, indi heç kimin baxışı tuş gəlmir... Bu, artıq yaxşı haldır... Böyük şəhərin həmişə əsrarəngiz bir təəccübü olur. Bu təəccüb şəhərə yeni gələn insanlarda və bir də turistlərdə duyulur...

Amma indi artıq hər şey yaxşıdır. Daha bərəlmiş gözlərə rast gəlməzsən. Hə, bizim Bakı yenidən şəhər olmağa başlayır...

Qatarda elanların iki dildə verilməsi də gözəldir. Düzdür, bir qədər yaxşı alınmayıb, çox vaxt heç başa düşmürsən ki, nə deyirlər... Şəhərdə iki dilin də olması gözəldir. Şəhərin mahiyyətində, ümumiyyətlə, bir polifonizm olur... Bu elə bir şeydir ki, onu yalnız şəhərlilər duya bilir...

Deyilənə görə, əvvəllər şəhər-dövlətlər olub. Sonradan onların yerində indiki şəhərlər yaranıb. Amma mənə bu şəhər-dövlət məsələsi daha xoş gəlir, çünki hər şeydə bir tamlıq axtarmağı sevirəm. Hər şey tam olanda gözəl olur...

Hər şey mükəmməl olanda gözəl olur. Şəhər də orqanizm kimi tam olanda bizə daha gözəl görünür. Əslində şəhər-dövlətlər özlərini tamam itirmədilər və tamam tükənmədilər...

Təsəvvür edin, indi dünyada şəhərlilər özlərinin merini, özlərinin hakimlərini seçirlər, özlərinin kiçik dövlətlərini qururlar...

Bizdə isə hər şey təyinatla olur - hər şeyi yuxarıdan təyin edirlər... Ona görə də birgələşə, doğmalaşa bilmirik, bir-birimizi axıra qədər qəbul edə bilmirik...

Kiçik və hər şeydən qorxan dövlətlərdə şəhər-dövlətlərdən də qorxurlar, onları bu kiçik dövlətlərin ab-havası, yaşayış tərzi qorxudur...

Amma dünyaya baxın. Görün nələr baş verir? İndi harada meri təyin edirlər? Belə ölkələr qalıbmı? Bəlkə də qalıb... Yalnız o dövlətlərdə ki, orada hakimiyyəti heç kimlə bölüşmək istəmirlər, çünki onu hər şeydən çox sevirlər.

YENİ MÜSAVAT
N 138 (6166) 26 iyun 2015





# İrəvan vətəndaş müharibəsinin bir addımlığında

## Orduda ölən ermənilərin valideynləri də ayağa qalxdı; Dağlıq Qarabağ erməniləri İrəvandakı üsyanı müdafiə etdi; ABŞ və Rusiyadan reaksiyalar gəldi; rus ekspert Amerika səfirinin qovulması təklifini verdi

## Elxan Mehdiyev: "Bundan sonra orada yeni qüvvələr ortaya çıxacaq və hərəkatı istefa tələblərinə yönəldəcək"

**Ermənistan hökumətinin elektrik enerjisi tariflərini artırmasına etiraz olaraq başlayan etiraz aksiyaları fasiləsiz şəkildə davam edir. Son gün daha 10 min nəfər facebookda aksiyaya qoşulacağını bildirib.**

Yayılan məlumatlara görə, keçmiş və indiki deputatlar, artistlər, şou-biznes nümayəndələri və ziyalılar polislə aksiyaçılar arasında canlı sədd çəkiblər. "Azad demokratlar" Partiyasının sədri Xacatur Kokobelyan jurnalistlərə bildirib ki, məqsəd nümayişçilərin taktikasına mane olmaq yox, zorakılığa yol verməməkdir. Onlar gün ərzində baş nazir və parlamentin sədrindən cavab gözləyirlər.

Prezident Serj Sərkisyan isə bir addım geri çəkilərək deyib ki, elektrik enerjisinin qiymətlərinə yenidən baxıla bilər. Sərksiyan elektrik enerjisi ilə bağlı tariflərin artımı haqqında komissiyanın qərarını təkrar baxışdan keçirmək qərarı verib. Onun bu qərarının isə elektrik enerjisi qiymətlərinin ucuzlaşdırılmasına təsir edib-etməyəcəyi barədə məlumat verilməyib. Lakin paralel olaraq gecə saatlarında hadisə yerinə əlavə dəyənəkli və dəmir şitli qüvvələr yeridilib.

***

İyunun 25-də Ermənistan ordusunda müəmmalı şəkildə ölən erməni əsgərlərin valideynləri də ayağa qalxıb. Onlar Prezident Administrasiyası və Milli Məclisin binasına doğru yürüş etməyə çalışsa da, polis buna imkan verməyib. Erməni mənbələrinin yaydığı məlumata görə, İrəvan polisinin rəis müavini Valeriy Osipyan valideynləri sakitləşməyə çağırarkən az qalıb onlara yalvarsın. O, "mən sizi başa düşürəm, sizin vəziyyətinizi anlayıram, sizin yerinizdə olsaydım özüm necə davranardım, bunu dəqiq bilmirəm. İnanın, biz sizi başa düşürük. Biz sizin əleyhinizə deyilik, inanın" deyə, dil töküb. Osipyan aksiyanı növbəti gün keçirməyə çağırıb. Erməni hakimiyyəti orduda müəmmalı şəraitdə ölən əsgərlərin valideynlərini sakitləşdirməklə elektrik enerjisinin tariflərinin artmasına etiraz olaraq Baqramyan prospekti boyunca aksiya keçirənlərə növbəti dəstəyin gəlməsini əngəlləmək istəyib. Əsgər anaları isə övladlarının qatillərinin "daxili düşmənlər" olduğunu bəyan edir və geri çəkilmək niyyətində deyillər. Onlar bəyan ediblər ki, ordudakı cinayətlər açılmasa, erməni valideynlər övladlarını hərbi xidmətə göndərməkdən imtina edəcəklər.

Dağlıq Qarabağ erməniləri də İrəvanda keçirilən etiraz aksiyasına dəstək verib. Strateq.az bildirir ki, Dağlıq Qarabağda yaradılan Respublika Partiyasının təşəbbüs qrupu Ermənistanda enerji tarifləri ilə bağlı davam edən etiraz aksiyası ilə bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, Dağlıq Qarabağ erməniləri "ədalətin bərpa olunması üçün başlanmış bu hərəkata dərin dəstəyini ifadə edirlər".

***

Azadlıq Radiosunun baş redaktoru Nenad Pejic radionun erməni xidmətinin jurnalistlərinə və digər mətbuat orqanlarının əməkdaşlarına güc tətbiq olunmasına etirazını bildirib. Ermənistandakı ABŞ səfirliyi də polis zorakılığını pisləyib, hadisənin tam və şəffaf şəkildə araşdırılmasına ehtiyac olduğunu deyib. ATƏT, Avropa Birliyinin İrəvan nümayəndəlikləri də bənzər bəyanatlar verib, hakimiyyətlə ictimaiyyət arasında dialoqun vacibliyini vurğulayıb.





Ermənistanda baş verənlərin arxasında Qərb dairələrinin dayanması və proseslərin rəngli inqilablara apardığı haqda şərhlər geniş yayılıb. Artıq əks fikirlər də səslənir. "Ermənistan özünü energetika baxımından Rusiyadan tam asılı vəziyyətə salaraq seçim azadlığından məhrum oldu. Rusiya bu ölkənin bütün enerji strukturunu əldə edib". Bunu "Trend"ə ABŞ dövlət katibinin Cənubi Qafqaz üzrə sabiq köməkçisi, Birləşmiş Ştatların Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri, Tallində fəaliyyət göstərən Beynəlxalq Müdafiə Araşdırmaları Mərkəzinin direktoru **Metyu Brayza** bildirib. Onun sözlərinə əsasən, ABŞ Ermənistana uzun illər təklif edib ki, Rusiyadan enerjidaşıyıcılarının tədarükü asılılığını azaltsın. M.Brayza qeyd edib ki, lakin Ermənistan bunu etmədi və nəticədə Rusiya şirkətləri Ermənistanın enerji infrastrukturunun obyektlərini satın aldılar: "Bu, Ermənistan hökumətinin strateji səhvi oldu". **O hesab edir ki, Ermənistandakı etiraz aksiyalarını Ukraynadakı hadisələrlə müqayisə etmək düzgün deyil, çünki hər iki hadisə unikaldır:** "Ermənistan hökuməti Rusiyanın enerji şirkətləri ilə danışıqlar stolu arxasına oturmalıdır". M.Brayza diqqətə çatdırıb ki, Ermənistandakı etiraz aksiyalarına görə günahı ABŞ-ın üzərinə artmaq düzgün olmazdı, çünki Vaşinqtonun bu hadisələrlə heç bir əlaqəsi yoxdur.

"Rusiyanın Ermənistandakı kütləvi etiraz aksiyalarına heç bir aidiyyəti yoxdur". Axar.az xəbər verir ki, bu açıqlama ilə Rusiyanın energetika naziri **Aleksandr Novak** çıxış edib. Onun sözlərinə görə, Ermənistanda elektrik enerjisinin qiymətinin qaldırılması ilə bağlı qərarı İrəvanın özü verib. Qeyd edək ki, Ermənistanın bütün elektrik sistemi Rusiya şirkətlərinə aiddir.



**"Qiymətlərin və tariflərin qalxması postsovet məkanının əhalisi üçün ən problemli məqamlardan biridir". Bunu isə rusiyalı politoloq Qriqori Trofimçuk söyləyib. (axar.az) Onun sözlərinə görə, Ermənistanda hakimiyyətin devrilməsi heç nəyi dəyişdirməyəcək:** "İnsanlar başa düşmürlər ki, qiymətlərin müntəzəm olaraq qalxması dövlətin bazar iqtisadiyyatının baza əsaslarından biridir. Qısası, erməni əhalisi anlamalıdır ki, artıq bundan sonra hətta kütlə tərəfindən saraya əllə gətirilən prezident olsa belə, qiymətləri daha yuxarı qaldırmalı olacaq. Faktiki olaraq pulsuz elektrik enerjisi yalnız SSRİ-də mövcud idi. Lakin həmin dövrü artıq qaytarmaq olmaz. Aydındır ki, İrəvandakı mitinqlər ölkəni daxildən zəifətmək üçün zəncirin əsas halqasına çevrilir. Bu prosesin başlanğıcını rus əsgərinin Gümrüdəki erməni ailəsini güllələməsini göstərmək olaraq. Maraqlı məqam orasındadır ki, ona qarşı iş hələ bitməyib və nədənsə həmin şəxsə layiqli cəza verilməyib. Bunlar ilk kütləvi çıxışlara səbəb oldu. Ermənistan hökuməti üçün digər problem isə yerli biznesmen Çarukyanın gözlənilmədən siyasi mövqe tutması oldu. İndi isə qiymətlərin qaldırılmasına qarşı kütləvi etirazlar başlayıb. Ermənistanı hər imkanda "bombalayacaqlar" ki, o, Avrasiya İttifaqından əl çəksin. Bundan başqa, bütün vasitələrdən istifadə ediləcək ki, Rusiya və Ermənistan qarşı-qarşıya gəlsin. Doğrudur, Rusiya Ermənistan üçün tarifləri dondura bilər, amma bu güzəştlərin əvəzini bu dəfə ruslar ödəməli olacaqlar. Maydana gəlincə isə Ukrayna hadisələri göstərdi ki, qiymətlərin azaldılması üçün hakimiyyətin dəyişdirilməsi mənasızdır. Poroşenko dövründə əvvəlki illərdən fərqli olaraq qiymətlər bir neçə dəfə qalxdı".

**Politoloq Rasim Musabəyov özünün facebook hesabında düşmən ölkədə baş verənlər haqda belə yazıb:** "Ermənistanda il ərzində 7 milyard kilovat-saat enerji sərf edilir. Hökumət tərəfindən elektrik enerjisinin qiyməti min kilovat-saat üçün 15 dollar *(hər kilovat-saat üçün 7 dram)* artırıldı. Bir sözlə, hökumətin əhalinin və sənayenin üzərinə yüklənməsinə baxmayaraq, il ərzində əlavə qazanc 100 milyon dolları ötməyəcək". **Politoloq Ermənistanın Dağlıq Qarabağdan çıxacağı halda, ölkə iqtisadiyyatının normallaşacağını bildirib:** "Azərbaycana qarşı ərazi iddialarından imtina və Dağlıq Qarabağ münaqişəsinin həlli Ermənistan iqtisadiyyatını əlavə 200-300 milyon dollar xərcdən azad edəcək. Nəticədə Azərbaycan və Türkiyə ilə əlaqələrin bərpası Ermənistan iqtisadiyyatına əlavə qazanclar gətirəcək".

**"Hakimiyyət orqanları nümayişçilərə qarşı etdiklərinə görə məsuliyyət daşıyır". Bu açıqlama ilə erməni politoloq David Şahnazaryan çıxış edib. O, problemin yeganə həlli yolunun özlərinin əlində olduğunu bildirib:** "Hakimiyyət Ermənistanla sivil dünyanın əlaqələrinə çox böyük ziyan vurdu. Bugünkü sosial-iqtisadi vəziyyətimizin müntəzəm olaraq dərinləşməsi bizim xarici siyasətimizə mənfi təsir etməkdə davam edir. Hazırkı mitinqdə təşkilatçılıq və idarəçilik yoxdur. Ciddi addımlar atılmır, tələblər tam məlum deyil. Nə qədər ki, Rusiyanın siyasi oyunları ilə hərəkət edəcəyik və Avrasiya İqtisadi Birliyi adlanan qurumla əlaqələri inkişaf etdirməyə çalışacağıq, bu hadisələr də həmişə davam edəcək. Problemin yeganə həlli yolunun bir açarı var, o da özümüzdə olmalıdır. Yəni biz öz dövlətçiliyimiz uğrunda mübarizə aparmalıyıq. Əks təqdirdə, Rusiya həmişə olduğu kimi bizi sıxışdıracaq".

**"Mən Ermənistan hökumətinin yerinə olsaydım, ABŞ səfiri Riçard Milsi çoxdan ölkədən çıxarardım". Axar.az xəbər verir ki, bu açıqlama ilə rusiyalı deputat Valeri Raşkin çıxış edib.**

**Onun sözlərinə görə, postsovet məkanında Rusiyanın iki dostu qalıb:** "Faktiki olaraq, postsovet məkanında Rusiyanın iki əsl dostu qalıb. Bunlar Ermənistan və Belarusdur. Buna görə də amerikalılar sonuncu müttəfiqlərimizi daha güclü şəkildə bizdən ayırmağa çalışırlar. Onlar bizim ölkənin qarşısında növbəti rəngli inqilaba təşəbbüs edirlər".

Ermənistanda baş verənlər Rusiya-Amerika davasıdır, Amerikanın revanşı, yoxsa başqa bir məsələdir, hələ ki bu sualın cavabı yoxdur. İrəvanın polis rəisinin müavini Valeriy Osipyan İrəvandakı prosesləri Maydan hadisələrinə aparacağını istisna etsə də, əksini düşünənlər daha çoxdur.

***

**Siyasi şərhçi Elxan Mehdiyev "Yeni Müsavat"a bildirdi ki, məsələni Rusiya-Amerika davası kimi xarakterizə etmək səthi yanaşmadır:** "Ermənistanda narazılıq son ildə epizodik yürüş, mitinq və piketlərlə davam edirdi, indi isə o, davamlı şəkil almaqdadır. Aldığımız məlumatlar da məhduddur və bir şey məlumdur ki, bu, hər hansı partiya və hərəkatın təşkilatçılığı ilə deyil, ərəb inqilablarında olduğu kimi, kortəbii və qeyri-siyasi qüvvələrin təşəbbüsüdür. Siyasilər hələ ki orada yet tutmayıb. Bəlkə bundan sonra orada yeni qüvvələr ortaya çıxacaq və hərəkatı istefa tələblərinə yönəldəcək. Amma informasiya qıtlığından bizim fikir söyləməyimiz çətindir".

Bu məqamda Azərbaycanda "fürsətdir", deyib işğalçıya qarşı hərbi əməliyyatlara başlamaq çağırışı da eşidilir. E.Mehdiyev isə deyir ki, indiki dönəmdə hərbi əməliyyatlara başlamaq ancaq Sərkisyana kömək olar və daxili qeyri-stabilliyi birliyə cevirər. Bu məqsəd üçün hadisələrin yetişməsini gözləmək və vaxt itirmədən hərəkət etməyi planlamaq lazımdır.

❑ **E.PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi


**Ermənistanda elektrik enerjisinin bahalaşması ilə start götürən daxili təlatüm və çaxnaşmalar davam edir. Baş verənlərə müxtəlif yanaşmalar və siyasi dəyərləndirmələr var. Ancaq bütün hallarda işğalçı ölkədə cərəyan edən olaylar yüzdə-yüz blokada şəraitində olan bir ölkədə əhalinin acınacaqlı sosial-iqtisadi duruma düşməsinin bariz nümunəsidir.**





# Rusiya Qarabağ kartı ilə təzə oyuna başlayır?

## Ermənistandakı son olaylarda "Kremlin barmağı" getdikcə daha qabarıq görünür; Moskvanın işğalçı ölkə rəhbərliyində bir Xocalı canisini digəri ilə - Köçəryanla əvəzləmək niyyəti arxasında nə dayana bilər?

Müharibənin və həll olunmamış Qarabağ məsələsinin doğurduğu ağır iqtisadi problemlər, əsas qonşular - Türkiyə və Azərbaycanla normal əlaqələrin yoxluğu, ciddi təbii sərvətlərin və dənizə çıxışın olmaması, son 20 ilin bütün iri energetik-kommunikasiya layihələrindən kənarda qalma və təcrid olunma ona gətirib çıxarıb ki, Ermənistan iqtisadiyyatı faktiki çöküş ərəfəsinə gəlib, ölkədən güclü emiqrasiya baş verib, yerdə qalan əhali isə ac-yalavac gündədir. Belə lümpen kütlə isə sözsüz ki, Rusiya da, ABŞ da, digər regional və qlobal oyunçular da asanca manipulyasiya edib özlərinin bölgəyə yönəlik geosiyasi maraqlarını gerçəkləşdirməyə çalışacaqlar.

***

**Siyasi analitiklərin bu xüsusda şərhləri də maraqlıdır. Məsələn, politoloq Rasim Musabəyov hesab edir ki, Ermənistan iqtisadiyyatı yalnız işğal altındakı Azərbaycan torpaqlarından, Dağlıq Qarabağdan çıxacağı təqdirdə normallaşa bilər:** "Azərbaycana qarşı ərazi iddialarından imtina və Dağlıq Qarabağ münaqişəsinin həlli Ermənistan iqtisadiyyatını əlavə 200-300 milyon dollar xərcdən azad edəcək. Nəticədə Azərbaycan və Türkiyə ilə əlaqələrin bərpası Ermənistan iqtisadiyyatına əlavə qazanclar gətirəcək".

**Politoloq Mübariz Əhmədoğluna görə də məhz obyektiv iqtisadi faktorların hesabına Ermənistanda belə vəziyyət yaranıb ("Trend"). Onun sözlərinə görə, ABŞ, Avropa Birliyi, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun (BVF) Ermənistan iqtisadiyyatına siyasi, milli, dini yanaşması heç bir pozitiv təsir göstərə bilməyib:** "Bir neçə ay öncə BVF-nin Ermənistandakı nümayəndəsi Ermənistanın iqtisadi inkişaf perspektivlərini tərənnüm edən iclas keçirdi. Hətta yerli ekspertlər onu hökumətə yarınmaqda ittiham edərək, iclası yarımçıq tərk etdilər. Əsas mübahisə ölkənin iqtisadi inkişaf perspektivləri və inkişaf tempi barədə fikirlərin müxtəlifliyi idi. İndi həmin nümayəndə etiraf edir ki, Ermənistan dövlət borcuna qulluğa görə qeyri-komfort zonadadır".

**Onun fikrincə, beynəlxalq maliyyə qurumlarının Ermənistana yanaşmasında iqtisadi amillərdən daha çox korrupsiya və siyasi amillər rol oynayır:** "İşin ən maraqlı cəhəti ondadır ki, regional əməkdaşlıq və inteqrasiyadan danışan Qərb Azərbaycanın Ermənistanla regional layihələrlə bağlı əməkdaşlıq təkliflərinin heç birinə dəstək verməyib. Nəticə bəllidir: Ermənistan dövlətçiliyi süquta doğru gedir, erməni xalqı isə sosial-iqtisadi problemlərin girdabındadır. Bu gün tam əsasla demək olar ki, erməni xalqının başına gələn faciələrə Qarabağ klanı ilə bərabər Qərb də məsuliyyət daşıyır. Xüsusilə ABŞ Ermənistanla bağlı paradoksal siyasət aparır: sözdə özünü Ermənistanın müstəqilliyinin, Rusiyadan ayrılmasının tərəfdarı kimi göstərir, reallıqda isə onun Türkiyə və Azərbaycanla münasibətlərinin yaxşılaşmasına heç bir dəstək vermir və bununla da Ermənistanı Rusiyanın forpostu olmağa itələyir. Hər halda, Ermənistan regional iqtisadi layihələrə qoşulsaydı, Azərbaycandan neft-qaz məhsulları ala bilsəydi, elektrik enerjisini Türkiyəyə sata bilsəydi, Ermənistanın dövlətçiliyi möhkəmlənər, əhalinin sosial iqtisadi vəziyyəti yaxşılaşardı. Bunun üçün Dağlıq Qarabağ probleminin həlli təbii ki, əsas şərtdir".

***

**Ancaq fərqli fikir daşıyıcıları da var. Məsələn, "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Orucluya görə, Ermənistanda baş qaldıran etiraz aksiyalarının arxasında Rusiya dayanır (axar.az). Onun sözlərinə görə, kütləvi aksiyaların arxasında hələlik heç bir siyasi qüvvənin görünməməsi müəyyən dolaşıqlıq yaradır:** "Bu, Rusiyanın təşkil etdiyi bir işdir. Adətən heç bir aksiya kortəbii baş vermir və onun təşkilatçıları olur. Təşkilatçıların görünməməsi bu işin arxasında Rusiyanın olmasına işarə edir. Ermənistan hakimiyyətinin daxilində hansısa qüvvələrin olması isə ikinci ehtimal olaraq qalır. Bu da anlaşılandır. Rusiya çalışır ki, Serj Sərkisyanın hakimiyyətini maksimum dərəcədə zəiflətsin və ya ən azı növbəti seçkilərdə Sərkisyan hakimiyyətə öz adamını gətirə bilməsin. Çünki mətbuatdan və verilən müxtəlif açıqlamalardan belə bəlli olur ki, Rusiyanın hakimiyyətə gətirmək istədiyi bir fiqur var. Bu, Ermənistanın keçmiş prezidenti Robert Köçəryandır. Əgər Sərkisyan hakimiyyətini bu yolla ram etmək mümkün olmasa, proseslər hətta inqilaba qədər gedib çıxa bilər. Sərkisyanın vəziyyəti nəzarətə götürəcəyi də hələlik istisna edilməməlidir. Ancaq təbii ki, bütün hallarda bu cür aksiya və qarşıdurmalar hakimiyyətin mövqeyini sarsıdır".

***

Köçəryanın hakimiyyət olimpinə qayıtmaq üçün ciddi şəkildə çalışması və bu yöndə Kremldən "xeyir-dua" almağa səy göstərməsi təzə məsələ deyil - hərçənd Ermənistan daxilində ona Sərkisyan kimi Qarabağ klanının odioz fiquru olduğu üçün münasibət isti deyil. Ermənistan toplumu əslində bu klandan çoxdan xilas olmaq istəyir.

Ancaq Rusiya həmişəki kimi, öz maraqlarından çıxış edir və əsas hədəfi də odur ki, Qarabağ münaqişəsinin həlli onun nəzarətindən çıxmasın. Köçəryanın qayıdışı, yeni hakimiyyət olimpində bir Xocali canisinin digəri ilə əvəzlənməsi problemin həllini daha da uzaqlaşdıracaq və qəlizləşdirəcək. Bu mənada onun iqtidara dönüşü Azərbaycanın maraqlarına da uyğun ola bilməz. Azərbaycan üçün ən optimalı Ermənistanda Qarabağ klanına daxil olmayan, "Müharibə partiyası"nın üzvü olmayan bir şəxsin hakimiyyətə gəlməsidir. Fəqət, Ermənistanı ovucunda saxlayan Rusiya buna imkan verəcəkmi? Sual budur. Məsələ ondadır ki, Qərbin hər cür dəstək verdiyi Ukrayna kimi iri dövləti qarışdıran Rusiya balaca bir vilayəti boyda olan forpost Ermənistana qarşı istənilən ssenarini asanca həyata keçirə bilər. Unutmaq olmaz ki, Ermənistanda 102 saylı Rusiya hərbi bazası var və ölkəni rus sərhədçiləri qoruyur.

Hər necə olmasa, Rusiyanın Ermənistandakı etirazlardan istifadə edib Qarabağ kartı ilə təzə bir oyuna başlayacağı istisna deyil. Bu oyun Kremlə gərgin münasibətdə olduğu Qərbə bir daha Qarabağ məsələsində əsas söz sahibinin kim olduğunu göstərmək üçün lazım ola bilərdi. Başqa yandan, Köçəryanın hakimiyyətə qayıdışı Qarabağla bağlı İrəvanın maksimalist mövqeyinin qalması deməkdir ki, bu da Moskvaya əl verir. Ən azı, indiki mərhələdə.

# Ermənistanın rus rəisi Moskvaya qaçıb

**"Ermənistan elektrik şəbəkələri" şirkətinin baş direktoru Yevgeni Bibin qeyri-müəyyən müddətə Moskvaya gedib. Bu barədə "Joxovurd" qəzeti yazıb. Qəzet bildirib ki, şirkətin mətbuat katibi Natalya Sarajyan İrəvanın Baqramyan prospektində elektrik enerjisi tariflərinin bahalaşması ilə bağlı bir neçə gündür gedən oturaq etiraz aksiyasına təmsil etdiyi qurumun mövqeyini açıqlaya bilməyib. Onun sözlərinə görə, Bibin Moskvada baş idarənin Direktorlar Şurasının iclasına qatılıb.**



İrəvanın Azadlıq meydanında iyunun 19-da başlanan oturaq "Talana yox!" aksiyasının əsas tələbi elektrik enerjisi tariflərinin yüksəldilməsi barədə qərarı ləğv etmək olub. Ermənistan Tarif Şurası ötən çərşənbə günü keçirdiyi iclasda "Ermənistanın Elektrik Şəbəkəsi" şirkəti (EES) tərəfindən istehlakçılara çatdırılan elektrik enerjisinə yeni tarifləri müəyyənləşdirib. Yeni qərara əsasən, avqustun 1-dən etibarən əhali üçün elektrik enerjisinə yeni qiyməti 6,93 dram (təqribən 0,015 dollar) yüksələcək və gündüz vaxtları üçün bir kvat/saat üçün 48,78 drama qədər (təxminən 0,1 dollar), gecə vaxtı isə 38,78 dram (təqribən 0,08 dollar) təşkil edəcək. EES-in verdiyi sifarişdə isə qiymətlərin 17,08 dram (təqribən 0,036 dollar) qaldırılması təklif edilirdi.

YENİ MÜSAVAT
N 138 (6166) 26 iyun 2015

# İtkin düşən iki çavuşumuzun meyiti tapıldı



**İyunun 23-də itkin düşmüş hərbçilərin meyiti tapılıb. Müdafiə Nazirliyinin saytında verilən məlumata görə, Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu sahəsində qoşunların təmas xəttində, dağ-meşə şəraitində yolu azan müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları kiçik çavuş Musayev Musa Sabir oğlu və kiçik çavuş Yolçuyev Tural Sahib oğlunun axtarışları Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.**

İyunun 25-də hərbi qulluqçuların meyitləri qarşı tərəfdə minalanmış sahədə aşkar edilib. Görülən tədbirlər nəticəsində cəsədlər ərazidən çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.

# Nazir ordunu xüsusi rejimə keçirdi



**Ölkədə havanın temperaturunun yüksəlməsi ilə əlaqədar Silahlı Qüvvələrin şəxsi heyəti arasında istilik və günvurma hallarının qarşısının alınması məqsədilə müdafiə naziri, general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən hərbi hissə və birləşmələrdə xüsusi rejimin tətbiq olunmasına başlanılıb.**

APA-nın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, havanın hərarətinin yüksək olduğu günlərdə şəxsi heyəti istilik və günvurmadan qorumaq üçün döyüş hazırlığı məşğələləri müəyyən olunmuş saatlarda keçirilir.

Döyüş hazırlığı və gündəlik fəaliyyət tədbirləri planlaşdırılarkən hərbi qulluqçular günəş şüalarının birbaşa düşdüyü ərazidə deyil, əsasən kölgəlikdə, kazarma şəraitində yerləşdirilir, açıq səma altında görülən xidməti işlərə cəlb olunmur.

Eyni zamanda hərbi hissələrdə sərin su duşları və əlavə su təchizatı məntəqələri yaradılıb, şəxsi heyət içməli su və fərdi su qabları ilə təmin edilib.

# Azərbaycanda ölümcül xəstəliklərin yayıldığı bölgələrin adları açıqlandı



**Azərbaycan vətəndaşları daha çox qeyri-infeksion xəstəliklərə yoluxur və ölüm faktları da bu zaman baş verir. Səhiyyə Nazirliyi də qan dövranı sistemi (ürək-damar), tənəffüs orqanları, endokrin sistemi (şəkərli diabet), bədxassəli yeni törəmələr (xərçəng şişləri) kimi xəstəliklərin üstünlük təşkil etdiyini açıqlayıb.**

Modern.az-ın sorğusuna cavab olaraq Dövlət Statistika Komitəsindən bildirilib ki, 2014-cü ildə Azərbaycanda qan dövranı sistemi xəstəliklərinə 140433 nəfər, tənəffüs orqanları xəstəliklərinə 741198 nəfər, endokrin sistemi xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntularına 51099 nəfər, yeni törəmələrə 11011 nəfər yoluxub.

Məlumatda bildirilir ki, Bakı, Sumqayıt və Gəncə şəhərlərində, Tovuz, Sabirabad, Yevlax, Şəki, Ağdaş, Goranboy və Qobustan rayonlarında qan dövranı sisteminin xəstəliyi daha geniş yayılıb.

Tənəffüs orqanlarının xəstəliyinə isə daha çox yoluxanlar Bakı, Sumqayıt və Gəncə şəhərləri, Abşeron, Masallı, Tovuz, Quba, Cəlilabad və Astara rayonlarındandır.

Naxçıvan, Sumqayıt, Mingəçevir, Bakı və Şirvan şəhərlərində, Quba, Qusar, Qax, Xızı, Göygöl və Neftçala rayonlarında endokrin sistemin xəstəliyi daha geniş yayılıb.

Yentörəmələrə isə Bakı, Sumqayıt, Gəncə və Naxçıvan şəhərlərində, Abşeron, Xaçmaz, Kürdəmir, Şəki, Ucar, Lənkəran və Qəbələ rayonlarında yoluxanlar üstünlük təşkil edir.

# Fazil Mustafadan məmurlar haqda şok iddia

## "Azərbaycanda homoseksual vəzifəlilər var"

**Homoseksuallıq və cinsiyyət dəyişdirilməsi Azərbaycanda bəzi vəzifəli, zəngin insanların stimullaşdırdığı bir fəaliyyətdir. Bunu azvision.az-a açıqlamasında deputat Fazil Mustafa deyib. Deputat son günlər cinsiyyət dəyişdirilməsi halları ilə bağlı mətbuatda yayılan xəbərlərə münasibət bildirərək qeyd edib ki, homoseksuallıq bir xəstəlikdir.**



Fazil Mustafa

Deputatın sözlərinə görə, cinsiyyətin dəyişdirilməsi halları bu gün Azərbaycanda geniş yayılıb: "Belə xəstəliklər Azərbaycan mühitində süni şəkildə ötürülməkdədir. Bu insanın təbii varlığına ziddir. İnsanların bundan necə qorunmalarını söyləmək çox çətindir. Bu daha çox insanın fərdi daxili xüsusiyyətləri ilə bağlı olan bir xəstəlikdir. Hər halda, cəmiyyətdə buna qarşı mənfi münasibət daha ciddi olmalıdır.

İnsan əxlaqına və təbiətinə zidd olan cinsiyyət dəyişdirilməsinə qarşı cəmiyyət sərt mövqe nümayiş etdirməlidir. Bu xəstəliyin yayılmasını stimullaşdırmamalıdırlar. Amma bu xəstəlik Azərbaycanda hansısa bir formada stimullaşdırılır. Kütləvi informasiya vasitələrində yüngül həyat tərzi təbliğ olunur. Hazırda əxlaqsızlıq da stimullaşdırılır. Geyimlər və müxtəlif davranışlarla homoseksuallığı cəmiyyətə qəbul etdirməyə çalışırlar".

**Onun fikrincə, Azərbaycanda belə halların yayılmasının əsas səbəbi həqiqi dini təsəvvürlərin olmamasıdır:** "Saxta bir iman anlayışı var. Ona görə də insanların belə hallara qarşı reaksiyalarında müəyyən problemlər var. Hər halda, bu məsələyə kriminal kimi baxmaq lazım deyil. Cəmiyyətin mənəvi dəyərlərinə qarşı müəyyən hücumlar var. Buna görə də belə hallara qarşı müəyyən tədbirlərin görülməsini vacib hesab edirəm".

**F. Mustafa həmçinin qeyd edib ki, Azərbaycanda homoseksuallıq və cinsiyyət dəyişdirilməsinin yayılmasını stimullaşdıran məhz bəzi vəzifəli şəxslərdir:** "Homoseksuallıq və cinsiyyətin dəyişdirilməsi Azərbaycanda bəzi vəzifəli, zəngin insanların stimullaşdırdığı bir fəaliyyətdir. Qeyri-əxlaqi davranışların müəyyən bir qismi bu stimullaşdırmanın nəticəsi olaraq meydana çıxır.

Ona görə də cəmiyyətdə buna qarşı bir sərt mövqe ortaya qoyulmalıdır. Belə olmadıqda bu daha da adiləşir. Nəticədə isə cinsiyyət dəyişdirilməsinin normal hal olduğunu təlqin edirlər. Cahil insanlar belə bir addım atırlar. Bizim telekanallarda fiziki üzdəniraqların təbliğatı gedir. Onları söz sahibləri kimi təqdim edirlər".

**Deputat fikirlərinə əlavə edib ki, dövlət vəzifələrində çalışan bəzi şəxslərin homoseksuallığa meyilli olmaları ilə bağlı cəmiyyətdə söz-söhbətlər dolaşır:** "Bəzi adamların belə hallara haqq qazandırdıqlarını biz də kənardan eşidirik. Fakt olaraq bir şey söyləyə bilmirəm. Yalnız onu bilirəm ki, bu hallar Azərbaycanda çox geniş yayılıb. Çıxış yolu yoxdur. Yalnız normal vəzifələrə təyin olunan adamların mənəvi keyfiyyətləri ciddi yoxlanılmalıdır.

O cür fiziki üzdəniraq şəxsləri dövlət vəzifələrinə təyin etmək olmaz. Çünki bundan sonra hər kəs elə ola bilər. Belə şəxslərin vəzifə tutmaları ilə bağlı cəmiyyətdə kifayət qədər söz-söhbətlər dolaşır. Bu məlumatların müəyyən bir qismi qərəzli ola bilər. Amma müəyyən bir qismi də həqiqətdir".

# İcra nümayəndəsi vətəndaşlardan xərac yığmaqda suçlanır

## Şikayətçi: "Özünü Binəqədi İcra Hakimiyyətinin əməkdaşı kimi təqdim edən Mirpaşa adlı şəxs məndən 5 min manat tələb edir"

**Özünü Binəqədi Rayon İcra Hakimiyyətinin Sulutəpə qəsəbəsi üzrə nümayəndəsi kimi təqdim edən Mirpaşa adlı şəxs sakinlərdən qəsəbə ərazisində ev tikməyə icazə verməsi üçün 5 min manat tələb edir. Əks halda, tikilən evlər sökülür və yaxud da tikintisinə icazə verilmir. Bu barədə Qafqaz Xəbər Agentliyinə şikayətçi Elçin Əliyev məlumat verib.**

Deyib ki, Binəqədi rayonu, Sulutəpə qəsəbəsi, Ruslan Allahverdiyev küçəsində aldığı torpaq sahəsində fərdi yaşayış evi tikmək üçün icra hakimiyyətindən icazə ala bilmir. Sulutəpə ərazisində torpaq sahibi olan vətəndaşların heç birinin fərdi torpaq sahəsini təsdiq edən sənədi yoxdur. Bələdiyyə rəhbərliyindən alınan 1000-dən çox pay torpaq sahələrində tikinti aparmaq istəyənlər bələdiyyə daxilində özünü icra hakimiyyətinin nümayəndəsi kimi təqdim edən Mirpaşa adlı şəxsə 5 min manat civarında pul ödəyərək inşa ediblər. Elçin Əliyev deyib ki, Sulutəpə bələdiyyəsindən ona verilən torpaq sahəsində ev tikmək istəsə də, özünü Mirpaşa kimi təqdim edən şəxs ona 5 min manat ödəmədən tikintiyə başlaya bilməyəcəyini bildirib. Söylənilən məbləği ödəyə bilməyən ailə çarəsiz qalıb. Dəfələrlə birinci xanım Mehriban Əliyevaya məktub yazan ailənin müraciətinə isə baxılması üçün hər dəfə Binəqədi İcra Hakimiyyətinə göstəriş verilsə də, ailəyə məktub göndərilərək "sənədləri düzəlt, gəl, icazə verək" cavabı verilib.

İcazəni isə icra nümayəndəliyi 5 min manata verir. Kirayə mənzildə yaşayan ailənin övladlarının biri serebral iflic xəstəsidir. Xəstə övlad, bir yandan da kirayə mənzildə yaşamaq ailə üçün çətin olduğu üçün öz fərdi mənzilinin bircə otağını da olsa tikib istifadəyə verib yaşamaq istəyir. Ölkənin birinci xanımı Mehriban Əliyevaya, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə edilən müraciətlərdən sonra icra nümayəndəliyi "2500 manat gətirin, evinizi tikin" deyib. Lakin ailənin xəstə övladı olduğu üçün bu məbləğə də gücü çatmır. Sayt yazır ki, Mirpaşa Binəqədi Rayon İcra Hakimiyyətinin işçisi deyil, amma o, sakinlərdən təyin olunmuş məbləği toplayaraq ünvana çatdırır.

**Binəqədi rayon İH-nin mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**



Sahib İbrahimov

# Nazim İbrahimovun qardaşı istintaqa çağırıldı

**Diasporla İş Üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun qaynı, iş adamı Məzahir Cəfərovun müəmmalı şəkildə intiharı məsələsi prokurorluq tərəfindən ciddi araşdırılır.**

Bakı Şəhər Prokurorluğundan aznews.az-a daxil olan məlumata görə, özünə qəsd edən şəxsin işlədiyi, əlaqədə olduğu, eləcə də yaxın ətrafı işi aparan müstəntiq tərəfindən dindirilir. Bildirilir ki, dindirilən şəxslər sırasında Nazim İbrahimovun qardaşı, Məzahir Cəfərovla uzun illər bir yerdə çalışan Sahib İbrahimov və intihar edən şəxsin şəriki "Galaxy Palace" tikinti şirkətinin rəhbəri İlham Qasımov da var.

İlham Qasımov intihar olayına görə prokurorluqda dindirilidiyini təsdiq edib. Onun sözlərinə görə, iki gün əvvəl bir neçə saat müstəntiqin yanında olub.

Qeyd edək ki, Məzahir Cəfərovun meyiti ayın 21-i Həsən Əliyev küçəsində yerləşən mənzilində asılmış halda tapılıb. İntiharın səbəbi hələlik məlum deyil.




# Mərkəzi Bank Maliyyə Nazirliyinin ümidinə qaldı

## Ekspertlər "Mərkəzi Bank haqqında" Qanuna dəyişiklikləri izah edirlər: "Mərkəzi Bankın kəsirini Maliyyə Nazirliyi örtəcək"

**Dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə Qanunu təsdiq edib. Sərəncamla qanunda bəzi dəyişikliklər edilib. Dəyişikliklər aşağıdakı məzmundadır:**

1. 10.3-cü maddədə "tədavülə buraxılmış nağd milli valyutanın 15 faizi miqdarında müəyyən edilir və" sözləri "onun nizamnamə kapitalından az olmamaq şərti ilə" sözləri ilə əvəz edilsin.

2. 12-ci maddə üzrə:

2.1. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.2. Kapital ehtiyatları formalaşdırıldıqdan və Mərkəzi Bankın illik maliyyə hesabatı auditor rəyi ilə təsdiqləndikdən sonra reallaşdırılmış mənfəətin sərbəst qalığı dövlət büdcəsinə köçürülür.";

2.2. 12.3-cü maddə ləğv edilsin.

3. 13-cü maddə üzrə:

3.1. "Manatın" sözündən əvvəl "13.1." rəqəmləri əlavə edilsin;

3.2. 13.1-ci maddədən "və bu Qanunun 10.3-cü maddəsində nəzərdə tutulmuş normativin hesablanması zamanı nəzərə alınmır" sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 13.2-ci maddə əlavə edilsin:

"13.2. Xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində ilin sonuna yaranan zərərin ödənilməsi Mərkəzi Bankın kapital ehtiyatları hesabına təmin olunur".

4. 14.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.2. Mərkəzi Bankın fəaliyyəti nəticəsində yaranmış kapital çatışmazlığı bir maliyyə ili təxirə salınmaqla dövlətin buraxdığı qiymətli kağızlar hesabına ödənilir".

**Ekspert Vüqar Bayramovun sözlərinə görə, yeni dəyişikliklərə əsasən, kapital ehtiyatları formalaşdırıldıqdan və Mərkəzi Bankın illik maliyyə hesabatı auditor rəyi ilə təsdiqləndikdən sonra reallaşdırılmış mənfəətin sərbəst qalığı dövlət büdcəsinə köçürülür:** "Xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində ilin sonuna yaranan zərərin ödənilməsi Mərkəzi Bankın kapital ehtiyatları hesabına təmin olunur. Mərkəzi Bankın fəaliyyəti nəticəsində yaranmış kapital çatışmazlığı bir maliyyə ili təxirə salınmaqla dövlətin buraxdığı qiymətli kağızlar hesabına ödənilir. Son dəyişikliklər valyuta ehtiyatlarının məbləğinin azalacağı halda sözügedən bankın qiymətli kağızlar bazarı vasitəsilə vəsait cəlb etmək istəyi ilə bağlıdır".

**Ekspertin sözlərinə görə, yeni qaydalar Mərkəzi Bankın kapitalının formalaşması və kapital çatışmazlığı problemi ilə üzləşəndə onun ödənilməsi mexanizmlərinin dəyişdirilməsini nəzərdə tutur:** "Çünki əvvəlki qaydalara əsasən, Mərkəzi Bank ehtiyatları ilə nağd pul dövriyyəsi arasındakı asılılığı qorumaq üçün eyni zamanda pul aqreqatlarının həcmini dəyişməli idi. İndi isə bu məsələdə baş bank, demək olar, sərbəst olacaq. Mərkəzi Bankın kapital ehtiyatlarının minimum həddi onun nizamnamə kapitalından az olmamaq şərti ilə müəyyən olunacaq. Mərkəzi Bankın nizamnamə kapitalı isə ödənilməli səhmlərin ümumi nominal dəyərinin minimum miqdarıdır.

Əvvəllər Mərkəzi Bankın aktivlərinin məbləği onun passivlərinin məbləğindən aşağı düşdükdə yaranmış kapital çatışmazlığı dövlət tərəfindən ödənilməsi nəzərdə tutulurdu və bunun icrası üçün konkret mexanizmlər yox idi. İndi Mərkəzi Bank qiymətli kağızlar vasitəsilə borclanacaq. Nəticədə Mərkəzi Bankın fəaliyyəti nəticəsində yaranmış kapital çatışmazlığı bir maliyyə ili təxirə salınmaqla dövlətin buraxdığı qiymətli kağızlar hesabına ödəniləcək. Nəzərə alsaq ki, Mərkəzi Bankın kapital çatışmazlığı sözügedən bankın balansında olan xarici valyutada aktivlərin və ya qızılın yenidən qiymətləndirilməsi nəticəsində yaranan məzənnə fərqi ilə bağlı olur, bu, o deməkdir ki, Mərkəzi Bank daxili borclanmağa gedəcək. Bu dəyişikliyin müsbət tərəfi odur ki, qiymətli kağızlar bazarına müdaxilə bu bazarın inkişafına müsbət təsir göstərə bilər. Eyni zamanda, bu, dövlət vəsaitlərinin qənaət edilməsinə imkan verəcək. Çünki əvvəllər dövlət büdcəsi planlaşdırılan zaman Mərkəzi Bankın kapital çatışmazlığı yarandığı halda, dövlətdən həmin vəsait alınırdı. Yeni qaydalar isə daxili borclanma hesabına həmin çatışmazlığı ödəməyə imkan verəcək".

Ekspert Samir Əliyev isə qeyd edib ki, Mərkəzi Bank kapital çatışmazlığı ilə üzləşib: "Bankların kapital probleminin həlli ilə məşğul olan Mərkəzi Bankın hazırda özü kapital çatışmazlığı ilə üzləşib. 2014-cü ildə Bankda kapital çatışmazlığının həcmi 57,7 milyon manat olub. Ötən il Bankın 277,3 milyon manat həcmində zərəri yaranıb və bunun 219,5 milyon manatı onun kapitalı hesabına örtülüb. Kapitalın həcmi zərərin həcmindən az olduğundan 57,7 milyon manatlıq çatışmazlıq yaranıb. Halbuki 2013-cü ildə 251 milyon manat kapital artıqlığı qeydə alınmışdı. Qanunla bağlı dəyişiklik mövcud problemi həll etmək və gələcəkdə belə halların qarşısını almaq üçün mövcud mexanizmləri təkmilləşdirməkdir. Mərkəzi Bankın ümumilikdə məcmu zərəri ötən il 308,7 milyon manat olub. Bu zərərin şişməsində əsas rolu xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi nəticəsində yaranmış 454,7 milyon manatlıq zərər olub. Bankın cari əməliyyatdan zərəri isə 245,3 milyon manat olub. 2013-cü ildə qalan 31,5 milyon manat həcmində bölüşdürülməmiş mənfəət hesabına zərər 277, 7 milyon manata qədər azadılıb".

**Ekspertin sözlərinə görə, yeni dəyişikliyə əsasən, əvvəllər kapital ehtiyatları tədavülə buraxılmış nağd milli valyutanın 15 faizi miqdarında müəyyən edilirdisə, bundan sonra nizamnamə kapitalından, yəni 10 milyon manatdan az olmamaq şərti ilə müəyyənləşdiriləcək:** "Kapital ehtiyatının dövriyyədə olan nağd pulun həcmindən asılılığı aradan qaldırılır. Onsuz da Mərkəzi Bank üçün bu normativə əməl etmək qeyri-mümkün idi. Çünki bu halda kapital ehtiyatı indiki kimi 210 milyon manat yox, dəfələrlə çox olmalı idi. Asılılığın aradan qaldırılması Mərkəzi Bankın manevr imkanını artıracaq və ona kapital ehtiyatını istədiyi həcmdə formalaşdırmağa imkan verəcək. Son illər davamlı olaraq Mərkəzi Bankın kapital ehtiyatları ilə bağlı problemlər ortaya çıxır. Qanunvericiliyə görə, mənfəət ilk növbədə Mərkəzi Bankın kapital ehtiyatlarının formalaşdırılmasına yönəldilir. Kapital ehtiyatları formalaşdırıldıqdan sonra Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığı dövlət büdcəsinə köçürülməlidir. Ancaq son illər Mərkəzi Bank tərəfindən dövlət büdcəsinə vəsait köçürülməsi halları müşahidə edilməyib. Bank əldə etdiyi mənfəəti nə kapital ehtiyatının artırılmasına yönəldir, nə də dövlət büdcəsinə ödəyir. Dəyişikliyə görə, xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində ilin sonuna yaranan zərərin ödənilməsi Mərkəzi Bankın kapital ehtiyatları hesabına təmin olunacaq. Mərkəzi Bankın fəaliyyəti nəticəsində yaranmış kapital çatışmazlığı bir maliyyə ili təxirə salınmaqla dövlətin buraxdığı qiymətli kağızlar hesabına ödəniləcək. Əslində əvvəlki versiyada da zərərin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulurdu. Sadəcə, bunun ödənilməsi mexanizmi yox idi. Yeni düzəlişdə isə konkret olaraq qiymətli kağızlar hesabına ödənilməsi qeyd edilir. Bir sözlə, problem yaranacağı təqdirdə Mərkəzi Bankı Maliyyə Nazirliyi xilas edəcək".

**S.Əliyev bildirib ki, bundan sonra Mərkəzi Bank və Maliyyə Nazirliyi əl-ələ verib işləyəcəklər:** "Mərkəzi Bank "devalvasiya", Maliyyə Nazirliyi isə "qiymətli kağız" dəstəyi verəcək. Necə ki, büdcə gəlirlərini təmin etmək üçün Mərkəzi Bank fevralın 21-də devalvasiya edərək Nazirliyə dəstək verdi. 1992-1996-cı illərdə də dövlət büdcəsi kəsirinin örtülməsində Mərkəzi Bankın kreditləri əhəmiyyəti rol oynamışdı. İndi Maliyyə Nazirliyinin dəstək növbəsidir".

❑ **RÖYA**

# 41 dərəcə istidə əmək fəaliyyəti dayandırılmalıdır, ya da...



## Sahib Məmmədov: "Burada əsas məsələ işə götürənin vicdanlı olmasıdır..."

**Bir neçə gündür ki, paytaxtda anormal istilər müşahidə edilir. Havanın temperaturu 38-40 dərəcə arasında dəyişir. Belə istidə bayırda işləyənlərin hansı əziyyətə qatlaşdığını deməyə yəqin ki, ehtiyac yoxdur.**

Əmək Məcəlləsinə görə, əgər havanın temperaturu 41 dərəcəni keçərsə, iş fəaliyyəti dayanmalıdır. Maraqlıdır, hərarət həddən artıq olarsa, həyati əhəmiyyətli peşələrdə fəaliyyəti dayanmalıdırmı? Ümumiyyətlə, Əmək Məcəlləsinin bu göstərişinə əməl olunurmu?

**Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildirdi ki, əgər istidə fəaliyyəti dayandırılması mümkün olmayan bir iş sahəsidirsə, o zaman işə götürən işçilərə tez-tez fasilə və sərinləşdirici içkilər verməlidir:** "Soyuq və küləkli havada dayandırıla, xüsusi tədbirlər görülə bilər. Əmək Məcəlləsində əvvəllər 45 dərəcə istidə işləməyin qadağan olunduğu tələbi qoyulsa da, onu dəyişdirərək 41 dərəcə ediblər. Temperatur 41 dərəcədən yuxarı olduqda əgər iş gedən məkanda temperaturu süni surətdə, yəni kondisioner, ventilyatorla dəyişmək mümkün olmursa, həmin yerdə işə götürən şəxs xüsusi tədbirlər göndərməlidir. Birincisi, işi dayandırmalıdır. Yox, işin dayandırılması mümkün olan sahə deyilsə, o zaman işə götürən işçilərə tez-tez fasilə və sərinləşdirici içkilər verməlidir. Həmçinin onları şlyapa kimi xüsusi geyim vasitələri ilə təmin etməlidir ki, işçiləri nə gün, nə də isti vursun".

**S.Məmmədov əksər vaxt Əmək Məcəlləsinə əməl olunmadığını bildirdi:** "Bütün bu tələblərə əksər vaxt əməl olunmur. Məsələn, asfalt çəkənlər. Təsəvvür edin, isti hava, üstəlik, asfaltın temperaturu da gəlir onun üstünə, bu, tam bir işgəncədir. Bunların hamısı Əmək Məcəlləsində tənzimlənir. Amma əməl olunmur. Dövlət nəzarəti, dövlət əmək müfəttişliyi xidməti bununla bağlı tədbirlər görür. Amma onların bütün respublikada 270 nəfər işçisi var. Hər bir əmək müfəttişi gedib iş yerində dayana bilməz ki, bunu belə edin. 400-500 min ümumi, fiziki işə götürən şəxs var. Bunlara nəzarət etmək çox çətindir. Burada işə götürənlərin özünün işçilərin qarşısında korporativ sosial məsuliyyəti, maddi məsuliyyəti var. Yəni işçinin sağlamlığına dəyən ziyana görə işə götürən cavabdehlik daşıyır və onu sığortalayır. Əgər işçini sığortalamayıbsa, buna görə də məsuliyyət daşıyır. Bunlar hamısı xərclər tələb edir. İşi saxlamaq istəmirlər. Ona görə də bu cür hallar baş verir. Düzdür, bizdə istivurmadan, günvurmadan ağır fəsadlara, ölümə gətirən hallar qeydə alınmır. Amma uzun müddət günün altında işləyən insanın səhhətinə ziyan verə bilər. Bunun fəsadları dərhal üzə çıxmaya, amma zaman-zaman öz təsini göstərə bilər. Buna görə də işə götürən öz işçisinə insan kimi baxmalıdır, qul kimi yox. İşçisinin qayğısına qalmalıdır. Burada əsas məsələ işə götürənin vicdanlılığı məsələsidir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 138 (6166) 26 iyun 2015




Cümə söhbətləri

# Nəhəng bağışlanma potensialını hərəkətə gətirən sadə amillər

**Bismillahir-Rahmənir-Rahim! Ramazan ayının növbəti gününü də artıq arxada qoyuruq. Bir müddətdir Ramazan ayının daxil olmasına baxmayaraq, toplumda inancla, islami kimliyin dərki ilə bağlı, xüsusən də Ramazan ayının fəziləti, mənfəətləri, bu ayda gizlənən imkanlarla bağlı dəyərləndirmə çox zəifdir. Məsələn, bəzən insanlar İslamla, inancla bu qədər tanış deyillər ki, mübarək Ramazan ayının orucunun bir ay ərzində Allah tərəfindən vacib buyurulan əməl olduğunun fərqində olmurlar.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Təəssüflər olsun ki, hələ də kifayət qədər insan bu məsələyə ciddi yanaşmır. Sanki insanlar elə düşünür ki, oruc tutsalar, daha yaxşı olar, amma tutmasalar, eybi yoxdur, sanki mühüm bir məsələ deyil. Halbuki, oruc - Allah Təalanın insana vacib buyurduğu əməldir. Və Allah-Təalanın Özünün istisnaları xaric, hər kəs bu ayda oruc tutmalıdır.

## Oruc tutmayanın siqaret və mədə xəstəliyi bəhanəsi...

Bu da bir ayrı mövzu ki, bizim ölkədə Ramazan ayı gəldikdə insanların yarısında mədə xəstəlikləri üzə çıxır. Başqa vaxt heç bir şeylə təzahür tapmayan mədə ağrıları, Ramazan ayı daxil olanda birdən-birə baş qaldırır. Məlum olur ki, sən demə, insanların kifayət qədərində mədə ilə bağlı çətinliklər var imiş. Təbii ki, bütün bunlar insanların bəzən məlumatsızlığından, bəzən də özlərini aldatmalarından baş verir. Ona görə İslamın mahiyyətini, cövhərini, gerçək sütunu olan mövzularını dərk edən insanlar daha məsuliyyətli, daha ciddi olmalıdırlar.

Təəssüflər olsun ki, belə hala da kifayət qədər tez-tez rast gəlinir ki, özünü müsəlman sayan və müsəlman saya-saya da Ramazan ayı daxil olanda oruc tutmamasını aşkar bəyan etməsi ilə yanaşı, heç bu ayın hörmətini də saxlamayan insanlardan fərqli olaraq, müsəlman olmayanlar, o cümlədən xristianlar, hətta ateistlər oruca və oruc tutana daha saygı ilə yanaşırlar.

Oruc tutmaq istəməyənlərin bir bəhanəsi də siqaret dərdidir. Onlar belə hesab edirlər ki, oruc tutmağı, siqaretdən ayrı qalmağı bacarmazlar və beləcə özlərini buna inandırırlar. Özləri oruc tutmamalarına baxmayaraq, oruc tutanların da hörmətini saxlamırlar. Toplumda artıq o ilk illərdəki siqaret çəkənlərin oruc tutanların yanında hörmət edərək siqaret çəkməməsi, ədəb saxlaması ənənələri müəyyən mənada itməyə başlayıb.

Müsəlman insan bu mövzularda diqqətli olmalıdır. İnsanları yaxşılığa dəvət və pislikdən çəkindirmək lazımdır. Sözsüz ki, bunu Allah bəyənən şəkildə, həlmlə, hövsələ ilə etmək lazımdır. Amma bu, bir daha onu göstərir ki, cəmiyyətimizdə İslam maarifi köklü olaraq getməyib. Əgər insanların kifayət qədəri hələ də orucun Allah-Təalanın bir əmri olduğunun, birmənalı olaraq tutulmalı olduğunun, bir neçə gün oruc tutub, işini bununla bitmiş hesab etməli olmadığının və ən nəhayət, orucun müsəlman kimliyinin ən ciddi göstəricisi olduğunun fərqində deyillərsə, deməli, İslam maarifi bu toplumda hələ də köklü şəkildə yayılmayıb və mənimsənilməyib. Allah-Təaladan bu istiqamətdə xüsusi yardımlar istəyirik.

## Günahları kiçik saymaqdan pənah aparırıq...

**Ramazan ayının altıncı gününün duasına nəzər saldıqda, mühüm nöqtələrə toxunulduğunun şahidi oluruq. Duada buyurulur:** "İlahi, məni bu gün Sənin sözündən çıxıb, günah etməklə xar və zəlil etmə. Qəzəb şallaqları ilə məni vurma. Məni bu gün qəzəbinə səbəb olan günahlardan Öz minnət və qüdrətinlə uzaqlaşdır. Ey, arzu edənlərin son Arzusu!". Allah Təala günahları örtəndir, "Səttarul-uyub"dur. Hansı birimizin gerçək mahiyyətini ortaya qoysa, ətrafdakı bir çox insanlar bizdən kifayət qədər üz döndərəcək. Rəbbimizdir ki, Öz böyüklüyü və aliliyinə xatir bəndəsinə səbir edir, dözür, onun günahlarını aşkara çıxartmır. Çünki Allah-Təala ən yaxşı eyib örtəndir. Ramazan ayının altıncı gününün duasında keçən bu mətləblər bir daha bizlərə, nəinki bu ayda, bütün il boyu, ümumiyyətlə yaşantımızda bu məsələlərə diqqət etməli olduğumuzu aşılayır. Ona görə Allahdan günah etməmək üçün əzm istəyirik, çünki günahlar bütün həyatımızı, mövcudiyyətimizi müəyyən edən amillərdəndir. Bizi insanlıqdan çıxardan, Rəbbimizə üsyana sürükləyən məhz günahlardır. Günahlarla bağlı ən ağrılı məsələ - günahların kiçik hesab edilməsi, saya salınmamasıdır. İnsan böyük günahları tanıyır və onlardan qaçır, amma gündəlik həyatında etdiyi, xırda saydığı günahların, əhəmiyyət vermədiyi günahların onu zəlalətə sürüklədiyinin fərqinə varmır.

Təbii ki, Allah Təala insanın tövbələrini qəbul edən və onun günahlarını bağışlayandır. İnsan səmimi qəlbdən tövbə etsə, Allah-Təala hətta onun kəbirə günahlarını da bağışlayar. Amma biz bəzən bağışlanmayan günahlara fikir vermirik, lakin ağır zənn etdiyimiz, kəbirə günahlar kimi tanıdığımız günahları bağışlanmaz və ağır günah hesab edirik.

**İslam məntiqi bizim düşündüyümüzdən fərqli bir mənzərə cızır. Allah Rəsulu (s) belə buyurur: "Qeybət etmək zinadan pisdir". Ərz etdilər:** "Necə?" Buyurdu: "Kişi zina edir, sonra tövbə edir və Allah onun tövbəsini qəbul edir. Ancaq qeybət edən, qeybətini etdiyi şəxs tərəfindən bağışlanmayana qədər bağışlanmaz". Aydındır ki, zina - ən rəzil əməldir, qeyrəti olan adam İslam məntiqində zina etməz, bu, birmənalı məsələdir. Amma zina edən bir şəxsi, nə qədər rəzil bir əməl etməsinə, qeyrətsizlik etməsinə baxmayaraq, Allah-Təala bağışlaya bilər. Lakin qeybət etdikdə isə gərək qeybət etdiyi insanın halallığını alsın, yalnız bundan sonra Allah-Təala onu bağışlaya bilər. Allaha günahları kiçik saymaqdan pənah aparırıq. Çünki hər etdiyimiz günah, hər etdiyimiz kiçik yanlışlıqlar əslində bizi məhvə tərəf aparır. Həqiqətdə insan günahla özünü varlıq aləmində rüsvay edir.

## Allahın intiqam qamçıları

Duanın ayrı bir qismində isə Allahdan özünün intiqam qamçıları ilə bizi vurmamasını istəyirik. Yəni Allahın intiqamına səbəb olan əməllərdən, əslində Allaha sığınırıq. Allah-Təala Böyük və Rəhimlidir, amma bəzən bizim rəftar və davranışlarımız o məqama çatır ki, biz O-nun intiqamı ilə qarşılaşırıq. Duanın üçüncü çaları bundan ibarətdir ki, Allahdan bizi Onu qəzəbləndirən işlərdən uzaq etməsini diləyirik. Dua əslində bizlərə çox incə bir mətləbi çatdırır: insan Allahı qəzəbləndirən və sevindirən əməlləri özü üçün sıralamalı, tərtib etməli və sonra öz şəxsiyyətini dəyərləndirməlidir ki, hansı işləri Allahın qəzəbinə, hansı işləri rəğbətinə səbəb olub. Allah-Təalanı qəzəbləndirən şeylərin siyahısını tutsaq, həmin əməllərin əslində gündəlik həyatımızın bir hissəsi olduğunun şahidi oluruq. Ona görə də bu duada keçən mətləblər hansısa mücərrəd mənaları özündə əks etdirmir. Bütün bunlar realdır və həyatın içindədir. Buna görə də biz bu gün Allahdan belə durumdan nicat tapmaq üçün yardımlar diləyirik ki, il ərzində də Onu qəzəbləndirən əməllərdən uzaq olaq.

## Günahların yuyulması üçün sadə amillər

Bütün bunlarla yanaşı, bəzən günahların yuyulması, aradan getməsi insana görə zahirən aidiyyəti olmayan mövzularda gizlənib. Yəni Allah-Təala insanın hansısa günahını bağışlamasını elə bir əməldə gizlədib ki, insan fikirləşə bilər ki, bu əməlin onun günahının bağışlanmasına aidiyyəti yoxdur. Amma Allah-Təala bir çox məsələlərin səbəblərini bizim bilmədiyimiz, bunun fərqində olmadığımız şeylərdə qoyub.

**Məsələn, insanlarla münasibət günahların aradan getməsinə birbaşa təsir edən amildir. İmam Baqirdən (ə) belə nəql edirlər:** "İki nəfər kişi əl ilə görüşəndə əlini saxlayan şəxsin savabı əlini buraxandan daha çoxdur. Bilin ki, bu əməl (yəni əl ilə görüşmək) onların günahlarını tamamilə qurtaranadək yuyub aparar". Əvvələ, hədisdəki birinci nöqtə budur ki, insanlar təkəbbür edəndə digərlərini saymırlar. Onlara yuxarıdan aşağı baxırlar. Bunlar da adətən pulla, malla, sərvət və məqamla, insanın cahilliyi ilə, qəfləti ilə yaranan xüsusiyyətlərdir. Duadan göründüyü kimi, Allah- Təala bərəkəti özünü böyük bilib, digərlərini saymamaqda deyil, insanların səmimi münasibətində qoyub. Dinimizdə iki nəfər görüşəndə əlini saxlayan insanın savabı, görüşüb əlini çəkən insanın savabından daha çoxdur. Bu da bir ayrı məsələdir ki, bəzən insanlar bunun özündə də ifrata vararlar. Amma ümumilikdə dinimizin məntiqində salamlaşanda əlini tez çəkənin savabı, daha səmimi olub, əlini saxlayanın savabından daha azdır. Və bərəkət də, onların günahlarının bağışlanması da bu iki insan arasındakı görüşmədə, əl sıxmadadır.

Biz bəzən müxtəlif mücərrəd məsələləri düşünürük. Amma öz gündəlik həyatımızın içinə, yaşadığımız mühitə həmin o mənəvi durumu gətirmirik. Hər yer Allahın dərgahı və hüzurudur. İnsanlar bunu bilsə də, unudurlar. Allah-Təala bəzən bərəkəti elə əməllərdə qoyub ki, insan ona diqqət etmir, ondan qafil olur və bu azmış kimi, onu uzaqlarda axtarır. Hədisdə də buyurulur ki, adi bir səmimi salamlaşma insanın günahlarının tamamilə yuyulub aparılmasına səbəb ola bilir.

## Namazla günahın aradan getməsi

**İmam Sadiqdən (ə) günahların aradan aparılmasının vasitələrinin nələr olması barəsində belə nəql edirlər:** "Əgər sizlərdən birinizin qapısının ağzından bir arx axarsa və gündə beş dəfə o arxda yuyunsan, bədənində bir çirk və natəmizlik qalarmı? Namaz da, həmin bu paklayan, təmizləyən su arxına bənzəyir. İnsan namaz qılanda, namaz yalnız onu imandan çıxardan və israrla əməl etdiyi günahdan başqa, bütün günahlarını təmizləyər". Allah-Təala bizlərə günahları yumaq üçün namaz kimi bir fürsət verib ki, hər gün icra etdiyimiz əməldir. Amma fərqinə varmırıq ki, bu namaz bizim günahlarımızın bağışlanmasına səbəb ola bilər.

**Allahın Peyğəmbərindən (s) belə nəql edirlər:** "Kim imanla və Allah xatirinə cümə namazında iştirak edərsə, əməllərini yenidən başlamışdır (Allah mükafat olaraq onun keçmiş günahlarını bağışlayar və onun üçün yeni əməl naməsi açar)". Bəzən gündə etdiyimi əməllərdə, həftədə etdiyimiz əməllərdə Allah-Təala bağışlanmaq üçün fürsətlər qoyub.

**Yenə də İslam Peyğəmbərindən (s) nəql edirlər:** "Kim bir yazıda mənə salavat göndərsə, mənim adım həmin yazıda olanadək, mələklər daim onun günahlarının bağışlanmasını diləyərlər".

**Yaxud Allah Rəsulunun (s) oruc tutmaqla bağlı belə buyurduğunu nəql edirlər:** "Hər bir oruc tutan, yemək yeyən şəxslərin arasına daxil olanda onun bədən əzaları Allaha təsbih söyləyər, mələklər ona salam göndərər və dua edərlər. Belə ki, duaları onun günahlarının bağışlanması istəyi ilə olar".

## Qonaq günahı aradan aparır

**Günah aparan mövzulardan biri - qonağın gəlişidir. İslam Peyğəmbəri (s) belə buyurur:** "Qonaq öz ruzisini gətirər və ev əhlinin günahlarını aparar". Dinimizin məntiqinə görə, insanın evinə qonaq gələndə onun narahatlıq keçirməsi mənasızdır. Çünki qonaq öz ruzisini özü ilə gətirər. Hələ bu azmış kimi, ev əhlinin də günahlarının bağışlanmasına səbəb olar.

**Yenə də İslam Peyğəmbəri (s) buyurur:** "Qonaq qəbul edən şəxs üçün elə bu günah bəsdir ki, öz qardaşlarının qabağına qoyduğu yeməyi az hesab etsin. Qonaqlara da elə bu günah bəsdir ki, qardaşlarının onların qabağına qoyduğu yeməyi az hesab etsinlər". Bu, İslam mədəniyyətinin çox mühüm bir məsələsidir. Dinimizin məntiqində ev yiyəsi qonağının qabağına qoyduğu yeməyi az hesab etsə, günah etmiş olur. Eyni zamanda qonaq gələn şəxs də verilən yeməyi az hesab etsə, o da günah etmiş olur.

Bizim bütün işlərdə problemlərimiz özümüz üçün yaratdığımız qəlizliklərdən irəli gəlir. İnsanların bir-biriləri ilə nə üçün təmasları azalır, nə üçün get-gəlləri azalır, nəyə görə səmimiyyət, səfa azalır? Çünki standartlar çox yuxarı qalxıb. Kimsə qonaq gələndə həmin ev sahibi iki gün əvvəldən hazırlaşır, iki gün sonra da yer-yığış edir. Sanki müsəlman deyilik, İslmada deyilik, ona görə belə olur. Çünki İslam məntiqində "kim nə deyər"ə deyil, "Allah nə deyər"ə baxmaq lazımdır.

**Başqa bir yerdə Allahın Peyğəmbərinin (s) belə buyurduğunu nəql edirlər:** "Heç kəs qonaqların xatirinə özünü imkanından artıq zəhmətə salmamalıdır". Həzrət Peyğəmbər buyurur ki, insan özünü imkanından artıq zəhmətə salmamalıdır. Bizim cəmiyyətimizdə qonaq gedən şəxs məəttəl qalır ki, nə alsın, qonaq qarşılayan şəxs məəttəl qalır ki, qonağının qabağına nə qoysun. Bunlar əslində bədbəxtlikdir, lazımsız mövzulardır. Ən əsası da insanı günaha aparan mövzulardır. İnsan öz aləmində xidmət edir, amma əslində isə günah etdiyinin fərqinə varmır. Zənginlik - yeməklərin rəngarəngliyində deyil, insanların rəftarında, qonağı qarşılamaqda, onu yola salmaqda, ünsiyyətin gözəlliyində olmalıdır. Təəssüflər olsun ki, nə toylarımız, nə yaslarımız, nə iftar süfrələrimiz - bunların heç biri Allahın bəyənən halda deyil. Heç kim də özündən başlamaq istəmir. Amma insanlar, xüsusən də müsəlmanlar, möminlər bu durumun dəyişilməsi üçün, belə yanlış ənənələrin aradan getməsi üçün səy etməlidirlər. Çünki Allah Təalanın bu işdə razılığı yoxdur.

**Sonda təbərrük üçün İmam Səccaddan (ə) nəql olunan duanı zikr edək:** "Ey Mövlam! Öz günahlarıma baxıram, qorxuram. Sənin bağışlamağına baxıram, (ümidə) tamahlanıram". Kimsə hesab edir ki, onun Allah dərgahında qorxmalı, utanmalı əməlləri yoxdur - qafil və bədbəxt adamdır. Allahdan qəflətdə yaşadığımız hər anda özümüzü nə qədər bədbəxt etdiyimizin fərqinə varsaq, dəhşətə gələrik. İmam Səccad (ə) gerçək tanıyan adamdır ki, məsum olmasına baxmayaraq, yenə də Allahdan belə istəyir.

**Allahım! Bizləri mübarək Ramazan ayını dərk edib, yaşadanlardan qərar ver! Amin!**

# Azərbaycanda niyə Ramazan endirimləri yoxdur?

## İqtisadçı ekspert: "Bəzi müsəlman ölkələrində Ramazan ayı boyu hökumət hətta vergi güzəştləri də tətbiq edir"

**Hər il Ramazan ayı başlayan kimi ölkəni bahalaşma dalğası bürüyür və bu müqəddəs ayın sonunadək davam edir. Hazırda Ramazanın zəruri ərzağı sayılan xurmanın qiymətində 60 qəpiyədək bahalaşma var. Digər ərzaq məhsullarında da müəyyən qədər artım var. Azərbaycandan fərqli olaraq digər müsəlman ölkələrində bu müqəddəs ay gəlmədən əvvəl "Ramazan endirimləri" adı altında kampaniyalar başlanır.**



Azərbaycanda isə buna yalnız tək-tək marketlərdə, texniki avadanlıqlar satılan mağazalarda rast gəlinir. Hətta bununla bağlı mobil nömrələrimizə məlumat xarakterli mesajlar da göndərirlər. Ancaq əhali texniki avadanlıqlara deyil, ərzaq məhsullarına real Ramazan endirimlərini gözləyir. Müqəddəs Ramazan ayında endirimlərin olmaması cəmiyyət tərəfindən inanclı insanlara qarşı hörmətsizlik kimi də dəyərləndirilir. Qafqaz Müsəlmanları İdarəsi Ramazan ayında qiymətlərin endirilməsi haqda müraciət edə bilərdi. Ancaq təəssüf ki, bu baş verməyib.

Maraqlıdır, Azərbaycanda Ramazan endirimləri ilə bağlı nəzarəti kim həyata keçirməlidir? Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Dövlət Xidməti, yoxsa bu iş ticarətçilərin vicdanından asılıdır?

**İqtisadçı ekspert Natiq Cəfərli Ramazan endirimlərində hər iki tərəfin rolunun vacibliyini vurğuladı:** "Ramazan endirimlərində hər iki tərəfin rolu ola bilər. Bəzi müsəlman ölkələrində Ramazan ayı boyu hökumət vergi güzəştləri tətbiq edir. Əsasən də ərəb ölkələrində bu praktika var. Vergi güzəştləri tətbiq olunan bir dövrdə təbii ki, məhsulların da qiymətində endirimlər olur. Məsələn, Türkiyədə bunu əsnaflar deyilən ticarətlə, kənd təsərrüfatı ilə məşğul olan dərnəklər həyata keçirir. Bu dərnəklər xalqa bayram hədiyyəsi olaraq öz aralarında danışaraq qiymətin daha ucuz, əlçatan olmasına çalışırlar. Yəni sivil toplum tərəfindən, həm də hökumət tərəfindən addımların atılması mümkündür. Azərbaycanda təəssüf ki, belə dərnəklər mövcud deyil. Türkiyədə Ramazan dövründə çörəyin qiymətini Türkiyə Fırıncılar Dərnəyi müəyyən edir və şəhərlərdən gələn nümayəndələr müzakirələr apararaq hər şəhər üçün əhalinin cibinə uyğun qiymət müəyyən edirlər. Çox zaman da qiymətdə endirimlər edir, Ramazan çörəyi aksiyası keçirirlər. Yəni bu çox vacib məsələdir ki, biznes çevrələri bu işdə aktiv iştirak edir və əhalinin daha ucuz məhsula çıxışını təmin etməyə çalışırlar. Azərbaycanda nə belə sivil toplum quruluşları var, nə də hökumətin belə addımları".

İqtisadçı ekspert ticarətçilərin tələbatın artmasından istifadə edərək qiymətləri artırdıqlarını dedi: "Azərbaycanda problem ondan ibarətdir ki, Ramazan zamanı ya başqa bayramlar zamanı tələbat bir az artan kimi topdansatış və pərakəndə satış ticarətində çalışan insanlar bu tələbatın artımından istifadə edərək qiymətləri qaldırırlar. Çox zaman bayramdan sonra qiymətlər elə bayramdakı hədlərdə qalır, sonradan endirilmir. Bu proses sonradan addım-addım qiymət artımına gətirib çıxarır. Yəni burada hər iki tərəfin, hökumətin və sivil toplum quruluşlarının-yəni biznes çevrələrinin özlərinin bir təşəbbüs göstərməsi lazımdır. Azərbaycanda hər iki tərəfdə problem var. Həm hökumət, həm də məslək quruluşlarında problem olduğu üçün qiymətlər həmişə yüksək olur".

❑ **Günel MANAFLI**



# Kişi məktəb direktoru xadiməni döydü

## Maarif Səmədov: "Allaha and olsun ki, onu vurmamışam..."

**Azərbaycanın təhsil sistemində daha bir biabırçılıq olub. Belə ki, Ağsu rayonunda məktəb direktorunun xadiməni döyməsi ilə nəticələnən insident baş verib. Aznews.az xəbər verir ki, rayonun Keçdiməz kənd orta məktəbinin direktoru Maarif Səmədov xadimə Rəsiqə Orucovanı döyüb. Hadisə məktəbdə səhər saatlarında baş verib. Hadisənin baş verməsinə səbəb xadimənin işə gecikməsi olub. Onlar arasında başlayan mübahisə sonda direktorun xadiməni döyməsi ilə nəticələnib. Zərbələrdən ağır xəsarətlər alan R.Orucova xəstəxanaya aparılıb.**

Ağsu Rayon Polis Şöbəsinin Təhqiqat bölməsinin rəisi Hüseyn Mənsimli faktı təsdiqləyib. Bildirib ki, direktor M.Səmədov xadiməni döymədiyini iddia edir. Ekspertiza rəyi isə R.Orucovanın döyüldüyünü təsdiq edir.

Faktla bağlı Ağsu Rayon Prokurorluğunda cinayət işi açılıb. Araşdırma aparılır.

Kənd sakinlərinin sayta verdiyi məlumata görə, bu, M.Səmədovun ilk belə əməli deyil. Bir neçə il əvvəl o, məktəbin şagirdini döydüyü üçün vəzifədən uzaqlaşdırılıbmış. Lakin Ağsu Rayon Təhsil Şöbəsi onu yenidən məktəbə direktor təyin edib. Bu isə təəccüblü deyil. Saytın əldə etdiyi məlumata görə, sözügedən şöbənin rəhbəri Tahir Xasıyev M.Səmədovun əmisi oğludur.

Hadisə ilə bağlı ANS-PRESS məktəb direktorunun özü ilə əlaqə saxlayıb. Maarif Səmədov qadını döymədiyini bildirib. Onun sözlərinə görə, xadiməyə sadəcə qışqırıb və onun qolundan tutub: **"Mənim 60 yaşım var. Rəsiqə mənim şagirdim olub. Dəfələrlə işə gecikirdi. Dedim, izahat yaz. İmtina etdi. Ərklə qolundan tutdum və qışqırdım. Allaha and olsun ki, onu vurmamışam. Bu yaşda mənə yaraşmaz".**

Rayon təhsil şöbəsinin rəis müavini Adil Kərimovun sayta verdiyi məlumata görə, hadisə barədə xəbərdardırlar: **"Hazırda araşdırma aparırıq. Məktəb direktoru və xadimə üzləşdiriləcək. Araşdırmalardan sonra hadisənin əsl mahiyyəti məlum olacaq".**

Təhsil Nazirliyindən də hadisənin araşdırıldığını bildiriblər. Nazirliyin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehovun verdiyi məlumata görə, əgər şikayət təsdiqini taparsa, məktəb direktoru şiddətli şəkildə cəzalandırılacaq.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**
**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**




## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# YENİ MÜSAVAT

## Son səhifə

N 138 (6166) 26 iyun 2015




## 1,4 milyon dollarlıq təzminat

İtaliyanın keçmiş baş naziri Silvio Berluskoni ötən il boşandığı arvadı Veronika Larioya aylıq 1,4 milyon dollar avro təzminat ödəyəcək. 58 yaşlı qadına ayda 3 milyon avro ödənilməsi haqda qərar çıxarılsa da, keçmiş baş nazir bu qərara etiraz edib. Berluskoni özündən 20 yaş gənc olan Veronika Lario ilə 1980-ci ildə Milanda tanış olub və bundan 10 il sonra evlənib. Berluskoni 18 yaşlı Noemi Letzia ilə tanış olduqdan sonra 25 illik arvadından boşanıb. Boşanma ilə bağlı açıqlama verən Lario "uşaqlarla birlikdə olan biri ilə evli qala bilmərəm" deyə, açıqlama verib.



## Bu sərgiyə 350 mindən çox adam gələ bilər

Meksikanın paytaxtı Mexikoda incəsənət sevənlərin marağına səbəb olan sərgi açılır. Sabah ictimaiyyətin üzünə açılacaq sərgidə dünya şöhrətli rəssamlar Leonardo da Vinçi və Mikelancelonun əsərləri nümayiş etdiriləcək. Sərgiyə Mikelancelonun 29, Leonardo da Vinçinin isə 11 orijinal əsəri daxildir. Bu, Mikelancelonun əsərlərinin Meksikada ilk nümayişi olacaq. Da Vinçinin əsərləri isə Meksikada ilk dəfə 35 il əvvəl nümayiş etdirilmişdi. Sənətsevərlər sərgidə Leonardo da Vinçi və Mikelancelo ilə eyni dövrdə yaşamış daha bir neçə məşhur rəssamın orijinal əsərlərini də görə biləcəklər. Sərgiyə 350 mindən çox adamın gələcəyi gözlənilir.

# 20 il sonra ailəsinə qovuşdu

20 il əvvəl evinin həyətindən oğurlanan gənc oğlan polislərin araşdırmalarından sonra ailəsi ilə görüşə bilib. 22 yaşlı Van Şunqjan bir neçə ay əvvələ qədər həyatının ən böyük sirrindən xəbərsiz normal həyatına davam edirdi. 2 yaşında ikən yaşadığı evin həyətində bacısı ilə birlikdə oynayarkən oğurlanan və təxminən 2 min dollara başqa bir ailəyə satılan uşaq illər sonra unutduğu ailəsi ilə görüşüb. 1995-ci ildə Van haqqında araşdırma aparılsa da, tapılmadığı üçün polislər axtarışı dayandırıblar. 2008-ci ildə ailənin yenidən polisə müraciət etməsindən sonra axtarışlar başlayıb. Texnologiyanın imkanları ilə üz axtarma sistemindən istifadə edən polislər Şinqjanı tapıblar. 2 yaşında ikən uşağı qaçıranlardan biri həbs edilib.



# 25 ilə görə 6 milyon

Amerikada törətmədiyi cinayətə görə təxminən 25 il həbsdə yatan kişiyə 6 milyon dollar təzminat ödəniləcək. Nyu-Yorkun vəzifəli şəxslərindən biri olan Scott Stringer 25 il həbsdə qaldıqdan sonra günahsızlığı isbat edilən 53 yaşlı kişinin 6,25 milyon dollar təzminat alacağını açıqlayıb. Stringer jurnalistlərə verdiyi açıqlamada "Conatan Feminqə həbsdə yatdığı zamanı qaytara bilmərik. Lakin ona bu təzminatı ödəyərək həyatını asanlaşdırmaq istəyirik" deyib.

Fleminq 1989-cu ildə dostunun öldürülməsində günahkar sayılmış və həbs edilmişdi. Cinayətin işlənildiyi gün Floridada tətildə olduğu sübut edildikdən sonra sərbəst buraxılmışdı. Fleminqin vəkilləri hakimlərin onun cinayət işlənildiyi zaman Floridada olduğunu isbat edən telefon çeklərini, şəkilləri, hotel sənədlərini görməzlikdən gələrək məsuliyyətsizlik etdiyini deyiblər.





## 15 milyon dollarlıq loto

Amerikada yaşayan cütlük evləndikdən sonra oynadıqları lotodan 15 milyon dollar qazanaraq xoşbəxtlik yaşayıb. 1 mayda evlənən və evləndikdən sonra Eastham şəhərində yaşayan David və Stacy Foster cütlüyü evləndikdən sonra pul qazanmaq üçün loto almağa qərar veriblər. "Supreme Millions" adlı lotereya oyununa 30 dollarlıq bilet almaq istəyən cütlük istədikləri nömrələrin başqaları tərəfindən alındığını öyrəniblər. Başqa nömrələr alan David və Stacy fərqli nömrəli biletlər alıblar. 1 həftə sonra uduş qazanan nömrələrə baxan Foster cütlüyü biletlərinin 15 milyon dollar udduğunu gördükləri zaman şoka düşüblər. Qazandıqları pulu toy hədiyyəsi kimi qəbul edən yeni evli cütlük bu pulu daha yaxşı dəyərləndirmək üçün əllərindən gələni edəcəklərini deyirlər. Foster cütlüyü kredit borclarını ödədikdən sonra tətilə çıxacaqlarını deyiblər.




QOÇ - Təzə və ürəyinizdən olan xəbərlər yolunuzu gözləyir. Yeni əməkdaşlığa başlamaq üçün də uğurlu vaxtdır. Büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Səfərdən imtina edin.

BUĞA - Bütün çətin məqamlarda özünüzə güvənin. Kənardan kiminsə dəstək verəcəyinə ümid bəsləməyin. Belə olarsa, ulduzlar gün ərzində sizi bir neçə dəfə sevindirəcək.

ƏKİZLƏR - Bürcünüzdəki planetar passivlik görəcəyiniz işlərdə kompleks lənglik əmələ gətirəcək. Odur ki, qarşınızda duran vəzifələrin bir qismini ixtisara salın. Bu gün əsasən qazanmaq üçün düşərlidir.

XƏRÇƏNG - Ordu bayramının mənəvi zövqünü yaşamağa çalışın. Astroloji göstəricilər ixtiyarınızda olan bu təqvimdə əsas vaxtı fəaliyyət prinsiplərinə həsr etməyi məsləhət görür.

ŞİR - Saat 13-ə qədər müəyyən mübahisələrə cəlb oluna bilərsiniz. Özünüzü ələ alın. Dedi-qoduya əhəmiyyət verməyin. Sonrakı müddətdə məhəbbət ümmanına düşəcəksiniz. Özünənəzarəti gücləndirin.

QIZ - Maddi problemlərin çoxluğu bəzi qlobal planlarınızın reallaşması üçün əngəllər törədə bilər. Bu səbəbdən də özünüzü arzuolunmaz situasiyalara sürükləməyin. Səvindirici xəbərlər gözlənilir.

TƏRƏZİ - Şəxsi büdcənizi artırmaq üçün yaxşı vaxtdır. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Daxili narahatçılığınızı dəf etmək üçün mütləq ziyarətgahlara baş çəkin.

ƏQRƏB - Ünsiyyətdə olduğunuz bir neçə şəxslə aranızda konfliktlər yarana bilər. Özünüzü səbrli göstərin. Pul problemlərinizi gərəksiz yerdə qabartmayın. Riskə ehtiyac yoxdur.

OXATAN - Bayram günü olsa da, üzərinizə düşən vəzifələrin çoxluğu başınızı bərk qatacaq. Amma uğurlu nəticənin olacağını düşünüb hər şeyə dözməlisiniz. Təşəbbüskarlığı əldən verməyin.

OĞLAQ - O qədər gözəl ərəfədir ki, hətta pul kisənizin boşluğu da ovqatınızı aşağı salmayacaq. Gileylənmək, kiminsə arxasınca danışmaq sizə günah yaza bilər. Nikbin və gözütox olun.

SUTÖKƏN - Qarşılıqlı münasibətlərdə yeni çalarlar yaratmaq üçün cənfəşanlıq göstərin. Əməkdaşlıq zəminində də uğurlarınız mümkündür. Ölçülü-biçili hərəkət etsəniz, qazana da bilərsiniz.

BALIQLAR - Bu bayram gününü gərgin şəraitdə başa vuracağınız güman olunur. Amma aktivliyiniz nəzərə çarpacaq. Son vaxtlar yaşamağınızın fərqinə nə üçün varmırsınız? Axı vahid bir İdarəedici var...

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu əsgər hamını heyran edir



İsrailli məşhur model Maria Domark hərbi xidmətə başlayıb. Gözəlliyi ilə kişilərin diqqətini cəlb edən xanımın əsgər getdikdən sonra maraqlı şəkilləri ortaya çıxıb. Bir-birindən cəsur fotolar paylaşan Domarkın təqibçiləri də artıb. Maria Domarkı izləyənlər ona olan sevgilərini etiraf ediblər. Domarkın instagram hesabından paylaşdığı fotolar internetdə sürətlə yayılmağa başlayıb.

Qeyd edək ki, İsraildə qadınların hərbi xidmət keçməsi məcburidir.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300